Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

19 MART 2020-ci il

№ 49 (4180)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# RƏSMİ İRƏVAN YENİ EYFORİYADA - «PEKİN BİZİ REGİONAL PLASDARM KİMİ SEÇİR»...

■ səh. 7 ■

Prezident İlham Əliyevin xalqa daha bir real mesajı - heç bir ölkə özünü tam sığortalanmış hesab edə bilməz ■ səh. 2 ■

Azərbaycan Ordusunda Rusiya hücum helikopterləri... ■ səh. 8 ■

Ermənistanın təzə təşvişi - Moskva Qarabağ problemini Türkiyənin iştirakı ilə həll edə bilər ■ səh. 9 ■

Qorxulu virusla mübarizə şəraitində də sahibkarlara dövlət dəstəyinin yeni mexanizmləri müzakirə edilir ■ səh. 13 ■

Paşinyan referendumu təxirə salmaqla canını sosial-siyasi ziddiyyətlərdən qurtara biləcəkmi... ■ səh. 7 ■

"Koronarejim" qaydalarını pozanlara qarşı yeni cəza tədbirləri gəldi... ■ səh. 11 ■

İqtisadi azadlıq indeksinə görə Azərbaycanın dünyadakı yeri bir az da yaxşılaşdı... ■ səh. 12 ■

Uşaqlar Birliyinin dezinfeksiya edilməsi niyə problemlə üzləşib... ■ səh. 11 ■




## Koronavirusun Azərbaycan iqtisadiyyatına mənfi təsirini neytrallaşdırmaq üçün hökumət hərəkətə keçdi

■ səh. 6 ■



Prezidentin tapşırıqlarının icra vəziyyətinin təbii axara buraxıldığı dövr bitdi - məmurlar daha yayına bilməyəcəklər... ■ səh. 4 ■

Koronavirus bütün Avropaya yayıldı, İranda, Gürcüstanda, Ermənistan və Rusiyada yoluxanlar artdı ■ səh. 5 ■



Azərbaycan koronavirus sınağından Ermənistanla müqayisədə daha üstün göstəricilərlə çıxır - ciddi səbəblər var... ■ səh. 5 ■

■ səh. 3 ■ Mehriban Əliyevadan unikal çağırış və məşhur kitabdan sitat - Biganəliyə qarşı immuniteti hər kəs özü formalaşdırmalıdır...



■ səh. 3 ■ Azərbaycanda icra başçılarının fəaliyyətini qiymətləndirməyin yeni mərhələsi başlayır



■ səh. 10 ■ Azərbaycan xaricdən öz tələbələrinin təxliyyə edilməsində daha üstün nəticələr ortaya qoyur



■ səh. 12 ■ Böyük şəhərlərə girişin məhdudlaşdırılması - Azərbaycan şəraitində bu üsul nə qədər səmərəli olacaq...



■ səh. 14 ■ Böyük ticarət mərkəzləri və mollarda insanları virusdan qoruyan əsaslı yoxlama tədbirləri...



# Prezident İlham Əliyevin xalqa daha bir real mesajı - heç bir ölkə özünü tam sığortalanmış hesab edə bilməz

**Martın 18-də Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışı olub. Prezident İlham Əliyev açılışda iştirak edib və Pirşağı stansiyasından qatarla Görədil dayanacağına yola düşüb.**

Qarşıdan gələn bayram münasibətilə dəmiryolçuları təbrik edən Prezident İlham Əliyev deyib:

- Bakı şəhərinin ən önəmli nəqliyyat layihələrindən biri olan dairəvi dəmir yolu xətti Novruz bayramı ərəfəsində istismara hazırdır. Bu həm Bakı sakinlərinə, eyni zamanda, Sumqayıt şəhərinin, Abşeron rayonunun sakinlərinə xidmət göstərəcək. Ümumiyyətlə, bu imkandan milyonlarla insan istifadə edəcək. Beləliklə, şəhərimizin və Abşeron yarımadasının ən önəmli nəqliyyat layihələrindən biri olan dairəvi xətt tamamlanıb.

Bu xəttin bir tərəfə uzunluğu 91 kilometrdir, amma bütövlükdə, 200 kilometrə yaxın dəmir yolu çəkilişi təmin edilmişdir. Bu bir daha onu göstərir ki, Azərbaycan dövləti belə böyük layihələri həyata keçirməklə öz sosial siyasətini davam etdirir. Çünki bu dairəvi yolun tikintisinə qoyulan xərclər bəlkə də 100 ildən sonra ancaq büdcəyə qayıda bilər. Çünki bizdə dəmir yolu tarifləri çox aşağıdır. Bizim əsas məqsədimiz insanlar üçün gözəl imkanlar, rahat şərait yaratmaqdır.

Bu dəmir yolunun tikintisi, eyni zamanda, şəhər nəqliyyatına da müsbət təsir göstərəcək, tıxaclar, avtomobil yollarına düşən yük azalacaq, Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun ekoloji vəziyyəti yaxşılaşacaq. Çünki havanı çirkləndirən ən böyük amil nəqliyyat vasitələridir. Avtobuslara tələbat azalacaq, indi müəyyən marşrutlarda fəaliyyət göstərən avtobuslar digər marşrutlara köçürüləcək...

...Bundan sonra da işlər davam etdiriləcək. Mənə bu gün təqdim edilən xəritədə "Azərbaycan Dəmir Yolları" QSC-nin gələcək planları göstərilir. Digər qəsəbələrə, kəndlərə dəmir yollarının çəkilişi nəzərdə tutulur, layihələr hazırlanır. Biz tədricən bu işləri görəcəyik ki, Abşeron yarımadasının əksər qəsəbələri rahat dəmir yoluna sahib olsunlar.



Məhz ona görə hazırda ölkəmizdə koronavirusun yayılması o qədər də geniş vüsət almayıb. Ancaq bu, elə beladır ki, heç bir ölkə özünü tam sığortalanmış hesab edə bilməz. Hətta ən inkişaf etmiş ölkələrdə indi yaşanan böhran göz qabağındadır. Ona görə hər bir vətəndaş məsuliyyətli olmalıdır, öz şəxsi gigiyenasına fikir verməlidir. Eyni zamanda, ictimai işlərlə, ictimai nəqliyyatla məşğul olan qurumlar da bu işləri tam məsuliyyətlə görməlidirlər, tam dezinfeksiya aparılmalıdır ki, yoluxma hallarının sayı çox olmasın.

Əlbəttə ki, hazırda bizim sərhədlərimiz bağlıdır. Ancaq yükdaşımalar üçün heç bir ölkə öz sərhədini bağlamayıb. Ona görə yükdaşımalar istiqamətində bizim işlər davam etdiriləcək. Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaq.

Sizi bir daha ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

## Azərbaycanda koronavirusla mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsi gücləndirilir

**Prezident İlham Əliyev yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, yeni növ koronavirus infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 3-5 mislinədək miqdarda müddətli əlavə müəyyən edilir.

Nazirlər Kabinetinə bu sərəncamla müəyyən edilən müddətli əlavənin şamil olunacağı tibb işçilərinin əhatə dairəsini, əlavənin ödənilmə müddətini və işin xüsusiyyətindən asılı olaraq miqdarını müəyyən etmək, infeksiya ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinin və könüllülərin əməyinin ödənilməsi şərtlərini müəyyən etmək və sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

## Operativ qərargahın işinə dəstək olaraq Heydər Əliyev Fondu tərəfindən müxtəlif ölkələrdən tibbi ləvazimatlar gətirilib



**Koronavirus xəstəliyinin ölkə ərazisində geniş yayılmasının qarşısının alınması ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabineti yanında yaradılan Operativ qərargahın işinə dəstək olaraq Heydər Əliyev Fondu tərəfindən müxtəlif ölkələrdən tibbi ləvazimatlar gətirilib.**

"Trend"in məlumatına görə, xüsusi tibbi maskalar, əlcəklər, qoruyucu eynəklər, tibbi geyimlər və dezinfeksiyaedici vasitələr müvafiq tibb müəssisələrinə verilib.

# Azərbaycanda koronavirusa yoluxmuş daha 4 nəfər sağalaraq evə buraxıldı

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına yoluxduğu müəyyən edilmiş 4 nəfər xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalıb və evə buraxılıb.**



Nazirlər Kabineti yanında Operativ qərargahdan baki-xeber.com-a verilən məlumata görə, hazırda Azərbaycanda 23 nəfər aktiv koronavirus xəstəsi xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altındadır, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq, vətəndaşlarımızı Ümumdünya Səhiyyə Təşkilatı və Nazirlər Kabineti yanında Operativ qərargahın tələb və tövsiyələrinə riayət etməyə çağırırıq.

# Bakı, Sumqayıt və Abşerona daxil olanlara nəzarət üçün 3 yerdə post qurulur

**Bayram günlərində bölgələrdən Bakı, Sumqayıt və Abşerona girişin qadağan edilməsi ilə 3 yerdə Yol Polisi postları quraşdırılacaq. Bu barədə "Trend"ə açıqlamasında Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev deyib.**

Onun sözlərinə görə, artıq həmin postların qurulmasına başlanıb: "Bu postlar Bakı-Ələt-Astara yolunun 65-ci, Bakı-Quba yolunun 45-ci və Bakı-Şamaxı yolunun 26-cı kilometrliyində quraşdırılmağa başlanıb. Martın 19-u saat 00:00-dan etibarən həmin istiqamətlərdən Bakı, Sumqayıt və Abşeron ərazisinə daxil olan avtomobillər və sərnişinlər saxlanaraq yoxlanacaq. Avtomobil nömrə nişanı Bakı, Sumqayıt və Abşeron qeydiyyatı olmasına baxmayaraq, həmin avtonəqliyyat vasitələri də postlarda saxlanacaq və onların sərnişinlərinin qeydiyyat yeri dəqiqləşdiriləcək. Ona görə də vətəndaşlardan xahiş edirik ki, martın 19-dan 29-dək bölgələrə və ya bölgələrdən Bakı şəhəri və Abşeron rayonuna səfər etməsinlər. Əks halda onların bu ərazilərə daxil olmasına icazə verilməyəcək".

Xatırladaq ki, koronavirus infeksiyasının yayılması hallarının qarşısını almaq məqsədilə Nazirlər Kabineti yanında Operativ qərargah tərəfindən qəbul edilmiş qərara əsasən, martın 19-da saat 00.00-dan etibarən xüsusi təyinatlı, o cümlədən, təcili tibbi yardım, qəzabərpa, xilasedici, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılması martın 29-dək dayandırılacaq, yalnız Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı şəhərinə sərbəst giriş-çıxışına icazə veriləcək.

# Mehriban Əliyevadan unikal çağırış və məşhur kitabdan sitat - Biganəliyə qarşı immuniteti hər kəs özü formalaşdırmalıdır...

**"Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik". "Trend"in məlumatına görə, bu barədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın adından onun rəsmi saytında yayılan müraciətdə deyilir.**

Müraciətdə qeyd edilir: "Dünya qlobal çağırışla üz-üzədir. Hələ bir il bundan əvvəl bizim əksəriyyətimiz sadəlövhcəsinə güman edirdik ki, pandemiya, bugünədək bəlli olmayan və insan həyatına son qoyan təhlükəli xəstəliklər dövrü keçmişdə qalıb. İnanırdıq ki, biologiya elminin, tibbin, əczaçılığın və texnologiyaların müasir inkişaf səviyyəsi, o cümlədən, bəşəriyyətin kollektiv intellekt səviyyəsi bizi müəyyən "sürprizlərdən" sığortalayıb. Reallıq isə fərqli oldu. Nassem Talebin müzakirələrə səbəb olan "Qara qu quşu" dünyada hökm sürür. Müəllif öz məşhur kitabında yazır: "Hamı özünü təhlükədən qorumaq istəyir. Üsullardan biri - risqləri qiymətləndirmək və onları idarə etməkdir.... Bizim nə qədər səy göstərməyimiz vacib deyil. Hər hansı bir risqi dəqiqliklə proqnozlaşdırmaq qeyri-mümkündür".

"COVID-19" barədə kifayət qədər məlumat var. Yeni virus və ona yoluxmanın bütün fəsadları real zaman rejimində əsas dünya informasiya trendidir. Paradoksaldır, amma informasiya bolluğuna baxmayaraq, suallar cavablardan daha çoxdur.

Ümumdünya Səhiyyə Təşkilatının rəsmi statistikasına görə, dünyada virusa yoluxanların sayı 198 737 nəfər, həlak olanların sayı 7989 nəfər, sağalanların sayı 82 779 nəfərdir. Pandemiya elan olunan epidemiya 167 ölkədə yayılıb.

Təkzibolunmaz faktdır ki, dünya belə risqə hazır deyildi. Hətta səhiyyə sahəsində büdcələri milyardlarla ölçülən, nəhəng elmi-intellektual potensiala, qabaqcıl texnologiyalara malik ən inkişaf etmiş ölkələr belə epidemiyanın yayılmasının qarşısını ala bilmədilər.

Misilsiz tədbirlər görülür, sərhədlər bağlanır, dövlətlər təcrid olunur.

İnanıram və ümid edirəm ki, ümumi səylərimiz mütləq nəticə verəcək. Bəşəriyyət bu çağırışın öhdəsindən gələcək və daha da güclənəcək. Həmçinin, ümid edirəm ki, biz sadə həqiqətlər barədə düşünüb onları yenidən dərk etməyə çalışacağıq. Biz bir-birimizdən fərqliyik, amma evimiz birdir. Özgə dərd olmur. Ağrı və iztirablar sərhəd tanımır.

Virusa qarşı immunitet vaksin tapıldıqdan sonra yaranacaq. Biganəliyə qarşı immuniteti isə hər kəs özündə formalaşdırmalıdır.

Əziz həmvətənlər!

Ölkəmizdə bütün qüvvələr hadisələrin ən pis yöndə inkişafının qarşısının alınmasına səfərbər olunub. Bütün dövlət strukturları mobilizasiya olunub və birgə fəaliyyət göstərir. Biz ilk gündən Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edir və bu qurumun tövsiyələrinə çox ciddi yanaşırıq.



Epidemiyanın sürətlə yayılması, onun pandemiyaya çevrilməsi bu xəstəliklə mübarizədə vahid strategiya və taktikanın hazırlanmasını çətinləşdirir. Virusun və xəstəliyin tədqiqatı onlara qarşı mübarizə ilə eyni vaxtda aparılır. Buna görə də bir çox tövsiyələr situativ xarakter daşıyır və məlumat bazası genişləndikcə dəyişir. Aydın olan odur ki, təhlükəsizlik tədbirlərinə ciddi riayət edilməsi, şəxsi məsuliyyət və intizamlılıq özünüzü və ətrafınızdakıları qorumağın əsas şərtləridir.

Koronavirus epidemiyası ilə mübarizədə Azərbaycan dövləti ilə sıx əməkdaşlığa görə Ümumdünya Səhiyyə Təşkilatına minnətdarlığımı bildirirəm.

Bütün həmvətənlərimizi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ qərargahın tövsiyə və tələblərinə ciddi riayət etməyə çağırıram.

Hamınızdan xahiş edirəm, öz böyüklərinizi qoruyun! Virusa yoluxmuş insanların mütləq əksəriyyətində xəstəlik yüngül formada keçir və sağalma ilə nəticələnir. Daha çox yaşlı nəslin nümayəndələri, xroniki xəstəliklərdən əziyyət çəkənlər, immuniteti zəif olanlar xüsusi risq qrupuna aiddir. Biz, azərbaycanlılar həmişə böyüklərimizə xüsusi qayğı və hörmətlə yanaşmışıq, onları həssaslıqla qorumuşuq. Əminəm ki, üzləşdiyimiz bu vəziyyətdə biz daha diqqətli olacağıq. Bu gün laqeydlik yolverilməzdir.

Bu gün infeksiya ilə mübarizədə ön cəbhədə olanların, Azərbaycan vətəndaşlarının sağlamlığını və həyatını qorumaq üçün bütün lazımi tədbirləri görənlərin hər birinə - həkimlərə, tibbi personala, müxtəlif dövlət qurumlarının əməkdaşlarına xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Əziz dostlar!

Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik. Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram!

Ulu Tanrı bu çətin gündə hamıya kömək olsun.

Hər birinizə dualar və sevgi ilə,

Sizin MEHRİBAN".

# Azərbaycanda icra başçılarının fəaliyyətini qiymətləndirməyin yeni mərhələsi başlayır

**Prezident İlham Əliyevin dövlət idarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında imzaladığı sərəncamda olduqca yeni sayılacaq detallar var. Bildirilir ki, bundan sonra ölkə başçısının verdiyi sərəncam və fərmanların icrasına elektron nəzarət mexanizmləri tətbiq olunacaq.**




Vacib olan məqamlardan biri də budur ki, yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyi mütərəqqi dünya təcrübəsinə uyğun əsas səmərəlilik göstəriciləri üzrə qiymətləndiriləcək: "Azərbaycan Respublikası Prezidentinin Administrasiyası beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, aşağıdakılar barədə təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir:

- yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi mexanizminin yaradılması və tətbiqi;

- Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi üçün səmərəli informasiya sisteminin iş qaydası".

## *Rasim Quliyev: "Atılan bu addımlar idarəetmənin səmərəliliyinin artırılmasına xidmət edəcək"*

Aydındır ki, dövlət nəzarətinin təşkili və icra intizamına əməl olunması istiqamətində görülən işlərin səmərəliliyinin artırılmasına, bu sahədə daha əhatəli və çevik mexanizmlər yaradılmasına ehtiyac var. Bu baxımdan icra başçılarının fəaliyyətinin yeni üsulla qiymətləndirilməsinin nə kimi əhəmiyyəti ola bilər?

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, atılan bu addımı da cənab Prezidentin rəhbərliyi altında həyata keçirilən islahatların tərkib hissəsi saya bilərik: "Bilirsiniz ki, bu islahatların anonsunu cənab Prezident 2018-ci ildə verdi. Yenidən Prezident seçiləndən sonra özünün inauqurasiya nitqində bu barədə danışdı. Sonra biz struktur və kadr islahatlarının həyata keçirildiyini gördük. Atılan bu addımların da idarəetmənin səmərəliliyinin artırılmasına xidmət edəcəyini deyə bilərik. Bununla xalqla dövlət arasındakı ünsiyyət mexanizmlərinin daha da operativləşməsi təmin olunacaq. Bu sərəncam müəyyən strukturların işinin koordinasiya olunmasını təmin edəcək. Bu, eyni zamanda, müvafiq icra strukturlarının iş əmsalının ölçülməsində yaxşı vasitə olacaq. Hesab edirəm ki, yeni metodun daha çox iki aspekt üçün mühüm əhəmiyyəti olacaq. Həm cənab Prezidentin sərəncamlarına nəzarəti təmin edəcək, eyni zamanda, yerlərdəki icra strukturlarının fəaliyyətinin dəyərləndirilməsinə obyektiv qiymət verəcək.

Düzdür, verilən bu sərəncamın həyata keçirilməsi üçün bir müddət vaxt sərf ediləcək. Çünki söhbət elektron resursların hazırlanmasından gedir. Həmin sistemin icra strukturuna inteqrasiya olunmasına bir qədər vaxt sərf ediləcək. Buna baxmayaraq, həddən artıq mütərəqqi, faydalı iş əmsalının yüksəlməsinə xidmət edəcək bir yenilikdir. Bu, icra strukturunda məsuliyyəti artıracaq. Bunun da nəticəsində səmərəlilik artacaq. Səmərəlilik artanda isə bundan qazanan dövlət və xalq olur".

***Məhəmmədəli QƏRİBLİ***

# Prezidentin tapşırıqlarının icra vəziyyətinin təbii axara buraxıldığı dövr bitdi - məmurlar daha yayına bilməyəcəklər...

**Abil Bayramov:** *"Elə etmək lazımdır ki, sadə vətəndaşlar da həmin portala öz müraciətlərini yerləşdirə bilsinlər"*

**Məlum olduğu kimi, Prezident İlham Əliyev dövlət idarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi üçün yeni informasiya sistemi yaradılmalıdır.**

Sərəncamda bildirilir ki, yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyi mütərəqqi dünya təcrübəsinə uyğun əsas səmərəlilik göstəriciləri üzrə qiymətləndirilməlidir. Bunun üçün Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılır ki, beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin. Vacib götürülən istiqamətlərdən biri Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi üçün səmərəli informasiya sisteminin iş qaydasını yaratmaqla bağlıdır. Bəllidir ki, bəzən ölkə başçısının verdiyi fərman və tapşırıqların icra mexanizmi ilə bağlı problemlər olurdu. Həmin tapşırıqlar bəzən lazımınca icra olunmurdu. Bu nəzarət sisteminin elektron qaydada həyata keçirilməsinin nə kimi faydası olacaq?

Sosial məsələlər üzrə ekspert Abil Bayramov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə sistemə keçidin yalnız müsbət tərəfləri olacaq: "Bilirsiniz ki, indiyə qədən ölkə başçısının fərman və sərəncamlarının icrasına nəzarət olub. Ancaq burada insan amilinin rolu vardı. Prezidentə vəziyyəti əlaqədar şəxslər və ya qurumlar məruzə edirdilər. Ölkə başçısının özü də deyib ki, bəzən həmin adamlar məlumatları ondan gizlədirlər. Bu səbəbdən də dəfələrlə ictimai nəzarətin vacibliyindən danışıb. Yeni sistemə keçid elə həmin ictimai nəzarətin ən yüksək səviyyədə təminatı anlamına gəlir. Yeni elektron sistemin tətbiqi həm də nəzarətin səmərəlilik dərəcəsini artıra bilər. Bu həm də vətəndaş məmnunluğuna gətirəcək. Belə bir nəzarət sisteminə riayət olunarsa, nəzarətdən qalan hissələrlə də bağlı məlumatların əldə edilməsi mümkün olacaq. İstənilən halda, bu üsulla nəzarətin effektliyi bilavasitə nəzarətdən üstün olacaq".



Ekspertin sözlərinə görə, yeni yaradılacaq resursun informasiya təminatı ilə də bağlı öhdəliklər müəyyənləşməlidir: "Müxtəlif qurumlara tapşırılmalıdır ki, həmin resursa lazım olan informasiyaları vahid elektron sistemə yerləşdirsinlər. Ayrı-ayrı qurumlar tərəfindən belə bir öhdəliyə əməl olunarsa, bu, nəzarətin effektliyini daha da yüksəldə bilər".

Müsahibimizin sözlərinə görə, daha vacib olan amillərdən biri isə bu prosesdə vətəndaşların da iştirakını təmin etməkdir: "Yaradılan proqramda mütləq bu amil nəzərə alınmalıdır. Elə etmək lazımdır ki, sadə vətəndaşlar da həmin portala öz müraciətlərini yerləşdirə bilsinlər. Belə amillər nəzərə alınmasa, nəzarətin tam effektivliyini təmin etmək çətin olar. Bunun üçün də proqram mükəmməl və çoxfunksiyalı olmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda Konstitusiya referendumu - hansı dəyişikliklər daha real görünür...

**Prezident İlham Əliyevin VI çağırış Azərbaycan Milli Məclisinin ilk iclasında iştirakı və verdiyi mesajlar da kifayət qədər maraqlıdır. Ölkə başçısı çıxışında bildirdi ki, Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır:**




"Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq. Hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi maneə tələb olunmur. Hesab edirəm ki, bu praktikaya son qoyulmalıdır. Əgər biz doğrudan da istəyirik ki, Azərbaycanda çoxpartiyalı sistem inkişaf etsin, - biz bunu istəyirik və iqtidar partiyası kimi bunu təqdim edirik, - onda, əlbəttə, siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektri mövcud olmalıdır. Bu, hesab edirəm ki, Milli Məclisin gündəliyində duran məsələlərdən biri olacaqdır".

Bəzi analitiklər bu qərara gəlirlər ki, Prezidentin toxunduğu məqamlar ölkədə köklü islhatların həyata keçiriləcəyini vəd edir və bunun üçün ölkədə konstutusion islahatların aparılması zəruri görünür. Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Prezident tərəfindən verilən anonslar bunu deməyə əsas verir: "Elə siyasi islahatlar var ki, onların aparılması üçün konstitusion dəyişikliklərin aparılması zəruridir. Prezidentin də dediyi kimi, siyasi sistemi təkmilləşdirən addımlar atılmalıdır. Bu sahədə ən vacib addım siyasi ekspertlərin də dəfələrlə qaldırdığı konstitusiya islahatlarının aparılmasıdır. Seçki sisteminin təkmilləşdirilməsi, proporsional və ya qarışıq sistemin bərpa olunması, iri şəhərlərdə mer seçkilərinin keçirilməsi, bələdiyyə institutunun gücləndirilməsi olduqca vacib amildir. Bütün partiyalara bərabər imkanlar yaradan qanunvericilik bazasının formalaşdırılması ölkədə partiyaların da iştirak edəcəyi idarəetmə üsulunun tətbiqini şərtləndirir. Bunun üçün ölkənin idarə olunmasında parlamentin rolunun artırılması nəzərdə tutulur. Hesab edirəm ki, bu həm də parlament üsul-idarəçiliyinə keçidi şərtləndirə bilər. Xatırladaq ki, bu prosesi bir sıra postsovet ölkələri keçib. Düşünürəm ki, bunların həyata keçirilməsi üçün referendumun keçirilməsi zəruridir. Bu da gələn ilin payızında baş tuta bilər".

***Məhəmmədəli QƏRİBLİ***

**Dünyanın bir nömrəli pandemiyasına çevrilən koronavirusla bağlı müxtəlif ölkələrdə olan göstəricilər beynəlxalq ictimaiyyətin təəccübünə səbəb olur. Xüsusilə də dünyanın inkişaf etmiş bəzi ölkələrində bu epidemiyanın geniş yayılması ciddi müzakirələrə yol açır.**

***Adil Qeybulla:** "Ermənistanda bu xəstəliyin yayılması sürəti aprel ayında daha da artacaq"*

***Qahir Məmmədov:** "Görünür, dövlət bu sahədə də qabaqlayıcı tədbirlər görməyib ki, koronavirus statistikasına görə onlar belə irəli gediblər"*

# Azərbaycan koronavirus sınağından Ermənistanla müqayisədə daha üstün göstəricilərlə çıxır - ciddi səbəblər var...

Ən qəribəsi Ermənistanda olan vəziyyətdir. Həmin ölkənin Səhiyyə naziri Arsen Torosyanın verdiyi son məlumata görə, koronavirusa yoluxmaqda şübhəli bilinənlərin sayı 600 nəfərə çatıb: "Günün axırına kimi bizdə 600 nəfər izolyasiya edilən vətəndaş olacaq. Ehtimallara görə, onların sayı bir neçə yüz nəfər də artacaq". Nazir qeyd edib ki, hələlik xəstəlik tam təsdiqini 84 nəfərdə tapıb. Yalnız bir nəfər müalicə edilib".

Bizimlə eyni regionda yerləşən bu kiçik və demək olar ki, blokada şəraitində yaşayan ölkədəki koronovirusun yayılması ilə bağlı vəziyyətin belə acınacaqlı olmasının səbəbi nə ilə bağlı ola bilər?

Müqayisə üçün Nazirlər Kabineti yanında Operativ qərargahdan verilən son məlumata diqqət edək: "Azərbaycanda altı yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Xüsusi rejimli xəstəxanalara yerləşdirilən və müşahidə altında olan həmin şəxslər özlərini normal hiss edirlər, səhhətləri stabil qiymətləndirilir.

Hazırda Azərbaycanda 27 nəfər aktiv koronavirus xəstəsi xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altındadır, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq, vətəndaşlarımızı Ümumdünya Səhiyyə Təşkilatı və Nazirlər Kabineti yanında Operativ qərargahın tələb və tövsiyələrinə riayət etməyə çağırırıq".

Göründüyü kimi, Azərbaycanla müqayisədə Ermənistandakı vəziyyət çox acınacaqlıdır.




Tibb elmləri doktoru, professor Adil Qeybulla qəzetimizə bildirdi ki, bu virusdan heç bir ölkə sığortalanmayıb: "Görürsünüz ki, dünyanın hətta inkişaf etmiş ölkələrində də yayılma faizi çoxdur. Sürətlə yayılmada başqa faktorlar da olur. Bura lazımı tədbirlərin görülməməsini aid edə bilərik. Hesab edirəm ki, Ermənistanda bu xəstəliyin yayılması sürəti aprel ayında daha da artacaq. Çünki yoluxanların əksəriyyəti hələ inkubasiya dövründədir. Xəstəlik bir müddət sonra tam aşkar edilir. Ermənistan nə qədər qapalı olsa da, xariclə təmasları var. Bir neçə şəxsin hətta təyyarə ilə xəstə halda hansısa ölkədən ora gəlməsi kifayət edir. Bunun üçün şərt deyil ki, insanlar əlində çanta quru yolla sərhədi keçsinlər. Əslində, sərhəd amili bu xəstəlik üçün qoruyucu amil sayılmır. İnsanlar fərd olaraq gigiyenalarına fikir verməlidirlər".

Digər həkim Qahir Məmmədov isə hesab edir ki, Ermənistan kimi ölkədə belə statistikanın üzə çıxması düşünməyə əsas verir: "Bilirsiniz ki, onlarda bütün sahələrdə tənəzzül var. Görünür, dövlət bu sahədə də qabaqlayıcı tədbirlər görməyib ki, koronavirus statistikasına görə onlar belə irəli gediblər. Sizin səsləndirdiyiniz rəsmi rəqəmlərdir. Ola bilər ki, bir qədəri də gizlədilir. Onların öz mətbuatında məlumatlar yayılmışdı ki, ordularında da bu epidemiya geniş yayılıb".

***Məhəmmədəli QƏRİBLİ***

**Yeni növ koronavirus (COVID-19) Avropanın bütün ölkələrinə yayılıb. Baki-xeber.com xəbər verir ki, ən son martın 17-də Monteneqroda koronavirusa iki yoluxma faktı qeydə alınıb. Virusa yoluxanların iki qadın olduğu və əvvəllər virusun yayıldığı ölkələrə səyahət etdikləri bildirilib.**

# Koronavirus bütün Avropaya yayıldı, İranda, Gürcüstanda, Ermənistan və Rusiyada yoluxanlar artdı




Monteneqroda COVID-19 aşkarlanması ilə virus Avropa qitəsindəki bütün ölkələrə yayılmış oldu.

Bu arada, üçüncü ölkə vətəndaşlarının Avropa Birliyi ölkələrinə və Şengen bölgəsinə səyahətlərinə 30 günlük məhdudiyyət qoyulub. Bu barədə AB Şurasının sədri Çarlz Mişel və AB Komissiyasının sədri Ursula fon der Leyen, Birlik liderləri ilə telekonfransdan sonra mətbuat konfransında açıqlama verib.

Mişel yığıncaqda liderlərin AB sərhədlərinin bağlanması qaydasını təsdiqlədiyini açıqlayıb və yeni növ koronavirus (COVID-19) səbəbilə üçüncü ölkə vətəndaşları üçün Birlik üzvü olan ölkələr və Birlik üzvü olmayan Şengen bölgəsi ölkələrinə 30 günlük səyahət məhdudiyyəti gətirildiyini deyib.

AB Komissiyasının hazırladığı sənəddə AB və ya Şengen ölkələrində yaşayış icazəsi və ya iş icazəsi olanların, COVID-19 virusu üzərində işləyən elm adamlarının və səhiyyə işçilərinin istisnalıq təşkil etdiyi bildirilir.

İranda 18 marta yeni koronavirusa (COVID-19) yoluxanların sayı 17 361 nəfərə çatıb. İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil nazirinin müavini Əlirza Rəisinin sözlərinə görə, ötən sutka ərzində bu virusa 1 192 nəfər yoluxub.

Ə.Rəisi əlavə edib ki, İranda bu günədək koronavirusdan ölənlərin sayı 1135 nəfərə yüksəlib.

Nazirlik rəsmisi ötən sutkada 147 nəfərin virusdan öldüyünü deyib. O bildirib ki, indiyədək koronavirusdan 5 710 nəfər sağalıb.

Gürcüstanda bütün əhali koronavirus testindən keçirilə bilər. Ölkənin Səhiyyə naziri Yekaterina Tikaradze bildirib ki, bu testlər yoluxmanı ilkin mərhələlərdə aşkar etməyə imkan verəcək.

Nazir bildirib ki, testlərin aparılması üçün Cənubi Koreyanın təcrübəsindən istifadə olunacaq və hazırda bu ölkə ilə, eləcə də Çinlə danışıqlar aparılır.

Qeyd edək ki, bu günədək Gürcüstanda koronavirusa 38 nəfərin yoluxduğu təsdiq edilib. Hazırda 1 130 nəfər karantinə yerləşdirilib, stasionar nəzarətdə 81 nəfər yoxlanılır.

Koronavirus təhlükəsi ilə əlaqədar Gürcüstan martın 18-dən başlayaraq əcnəbilər üçün sərhədləri bağlamağa qərar verib.

Bundan başqa, Çin, İran, Cənubi Koreya, İtaliya, Almaniya, Fransa, İspaniya, Avstriya, İsveçrə, Norveç və Danimarkadan olan vətəndaşlar üçün məcburi karantin rejimi tətbiq olunur.

Ermənistanda koronavirusa yoluxanların sayı 80 nəfəri keçib. Bunu ölkənin Baş naziri Nikol Paşinyan öz "Facebook" səhifəsindən bildirib. Qeyd olunur ki, sutka ərzində virusa yoluxanların sayı 6 nəfər olub və 84 nəfərə çatıb. 2 nəfərin vəziyyəti ağır olaraq dəyərləndirilir.

Rusiyada koronavirusa yoluxanların sayı 147 nəfərə çatıb. Qeyd olunur ki, yoluxanların hamısı epidemiyanın mövcud olduğu ölkələrə gedib-gələn şəxslərdir. Yoluxanlar həkim nəzarətinə götürülüb, hazırda onların təmasda olduğu şəxslər müəyyənləşdirilir.

Dünyada koronavirusa yoluxanların sayı 200 min nəfəri ötüb. "Trend"in məlumatına görə, son bir neçə saat ərzində Almaniyada 510, Malayziyada 117 yoluxma faktı qeydə alınıb.

Ümumilikdə, qlobal olaraq koronavirusa yoluxanların sayı 200 097 nəfər təşkil edib, 8 010 nəfər isə virusun qurbanı olub.

***Namiq QULİYEV***

**Hələ də miqyası genişlənməkdə olan yeni növ koronavirus dünya iqtisadiyyatına, transmilli şirkətlərə belə mənfi təsir göstərməkdə davam edir. Asiya İnkişaf Bankının hesabatına əsasən, epidemiya dünya miqyasında iqtisadi artımın azalmasına gətirib çıxaracaq.**

# Koronavirusun Azərbaycan iqtisadiyyatına mənfi təsirini neytrallaşdırmaq üçün hökumət hərəkətə keçdi

Belə ki, Asiya İnkişaf Bankının ən yaxşı ssenarisinə görə, koronavirus 2 ay davam etsə, dünya iqtisadiyyatının itkisi 76,6 milyard dollar, 3 ayda 155,9 milyard dollar və 6 ayda 346.9 milyard dollar olacaq.

Bank ekspertləri hesab edirlər ki, koronavirus təhdidi daha uzun müddətə davam etsə, onda itkilər daha çox olacaq. Artıq indidən sərhədlərin bağlanması, gediş-gelişin dayanması dövlətlərə, şirkətlərə, istehsalçılara ciddi zərər vurur. İndi bir çox ölkədə şirkətlər dəstək üçün hökumətlərdən yardım istəyirlər. ABŞ, Avropa, Çin və digər ölkələrdə hökumətlərə belə müraciətlər ünvanlanıb.

Belə görünür ki, Azərbaycanda da yaranan çətin vəziyyətdə özəl sektora və digər istehsalçılara, sahibkarlara, eləcə də maliyyə çətinliyi yaşayan digər subyektlərə genişmiqyaslı yardım göstərməyə hazırlıq görülür. Əslində, bunun anonslarını bir neçə gün əvvəl Maliyyə naziri Samir Şərifov vermişdi: "Koronavirus dünyada olduğu kimi, ölkəmizdə də iqtisadi aktivliyə müəyyən mənfi təsir göstərəcək, lakin ölkə Prezidentinin tapşırığına əsasən, dövlət tərəfindən koronavirusun mənfi təsir etdiyi sahələrə, həmin sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə və sahibkarlara müəyyən dəstək veriləcək. Hansı formada və necə dəstək veriləcəyi ilə bağlı isə təkliflər hazırlanıb və təqdim olunacaq". Nazirin sözlərinə görə, hazırda hökumət koronavirusun dövlət büdcəsi gəlirlərimizə və xərclərinə təsirini qiymətləndirir: "Bütün bunlara baxmayaraq, mən əminlikdə deyə bilərəm ki, bu gün büdcə ödənişləri həmişəki qaydada və rejimdə icra olunmaqdadır.




Bundan başqa, dövlət vəzifələrini təmin edən xərclər, təsdiq olunmuş investisiya layihələri də tam maliyyələşdirilir. Ancaq yaşanan hadisələri nəzərə alaraq biz xərclərin prioritetliyinə, məqsədəuyğunluğuna da baxa bilərik".

Artıq Nazirlər Kabinetində də koronavirus pandemiyasının qlobal miqyasda yaratdığı neqativ mühitin Azərbaycan iqtisadiyyatına mümkün təsirləri və qabaqlayıcı tədbirlər haqqında müzakirələr aparılıb. Hökumətə tapşırılıb ki, 1 həftə ərzində ticarət, ictimai iaşə və nəqliyyat sahələrində tətbiq edilən məhdudlaşdırıcı tədbirlərin təsiri nəticəsində sahibkarlara dəyə biləcək itkilərin minimuma endirilməsi üçün, dövlət tərəfindən müxtəlif formalarda dəstək verilməsi də daxil olmaqla, təkliflər paketi hazırlasın. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycanda da virusun yaratdığı zərərlərin qarşılanmasında hökumət yaxından iştirak edəcək.

Digər tərəfdən, Milli Məclisdə səslənən fikirlərdən belə bəlli olur ki, hökumət yaranan durumda kreditlərin ödənilməsində çətinlik çəkənlərə də köməklik edə bilər. Məsələn, millət vəkili İqbal Məmmədovun sözlərinə görə, iş adamları sahibkarlığın inkişafı məqsədilə kreditlər götürüblər: "Ancaq, bir çox hallarda, sahibkarlar kreditləri qaytarmaqda çətinlik çəkirlər. Krediti gecikən zaman isə hər gecikən günə əlavə cərimələr, yeni peniyalar gəlir. İndiki şəraitdə, koronavirusla bağlı karantin müddəti bitənədək hökumətə gecikən kreditlərə görə peniyaların dondurulmasını təklif edirəm. Koronavirusla bağlı pandemiya müddəti bitdikdən, iqtisadi aktivlik təmin olunduqdan sonra gecikən kreditlərə görə peniyalar qüvvəyə minsin. Amma indiki vəziyyətdə bu, dondurulsa yaxşı olar. Bu da sahibkarların üzləşdiyi çətin durumda onlara böyük dəstək olar".

Digər millət vəkili Vüqar Bayramov da bildirir ki, artıq Nazirlər Kabineti koronavirus infeksiyasının iqtisadiyyata təsirlərinin minimumlaşdırılması məqsədilə sahibkarlara dəstək üçün təkliflər hazırladığını bəyan edib. Bu fonda, iqtisadçı məhdudlaşdırıcı tədbirlərin sahibkarlara və eləcə də vətəndaşlara iqtisadi təsirlərinin minimallaşdırılması üçün təkliflər irəli sürüb. V.Bayramov bildirib ki, həm sahibkarlar, həm də vətəndaşlar üçün kredit ödənişlərində güzəştin verilməsi məqsədəuyğun olar: "Doğrudur, 2 bank istisna olmaqla, digər banklar özəl qurumlardır. Amma Mərkəzi Bank tərəfindən banklara belə tövsiyə xarakterli müraciət edilə bilər. Bizə olan müraciətlərdə də bəzi vətəndaşlarımız koronavirus səbəbindən gəlirinin azaldığını və kredit ödəməkdə çətinlik çəkdiyini bildirirlər. Məsələn, Almaniyadan avtomobil idxal etməklə gəlir əldə edən vətəndaşımız artıq maşın satışı ilə məşğul ola bilmir, amma onun ipoteka kredit borcu var və borcunu ödəməkdə çətinlik çəkir. Bu baxımdan, kommersiya bankları tərəfindən növbəti 3 ay müddətində kredit ödənişlərində zaman güzəştinin verilməsi və yubanmalara görə cərimə və peniyaların hesablanmasının dayandırılması məqsədəuyğundur".

Millət vəkili bildirib ki, koronavirusla qlobal mübarizənin nəticəsindən asılı olaraq, bu müddətə yenidən baxıla bilər: "Koronavirus onlayn ticarətin inkişafını daha da aktuallaşdırıb. Sosial təcrid tədbirlərinin həyata keçirildiyini nəzərə alsaq, onlayn ticarətin təşviq edilməsi üçün güzəştlərin tətbiq olunması məqsədəuyğun olardı. ABŞ daxil olmaqla, bir sıra inkişaf etmiş ölkələrdə onlayn ticarət satış vergisindən azaddır. Oxşar praktikanın bizdə də tətbiq olunması məqsədəuyğun olardı".

Gözlənir ki, artıq yaxın tezlikdə kredit müddəti və güzəştlərlə bağlı hökumət müvafiq addımlar atsın. İndiki halda bu, ölkə iqtisadiyyatı üçün də olduqca önəmli sayılır.

***Tahir TAĞIYEV***

# Rəsmi İrəvan yeni eyforiyada - "Pekin bizi regional plasdarm kimi seçir"...

**Erməni mətbuatı iddia edir ki, böyük dövlətlər arasında geosiyasi nüfuz uğrunda gedən mübarizədə Ermənistanın rolu artır. Guya Ermənistan regionda aparıcı plasdarm rolunda çıxış edə bilər. Koronavirusla bağlı gedən proseslər fonunda ABŞ və Çin arasındakı nəhəng ərazidə əhəmiyyətli dəyişikliklərin olacağı ehtimalı yüksəkdir.**

*"Belə olan halda, deyilənlər reallığı əks etdirmir"*

***Əli Orucov:** "Ermənistanın coğrafi mövqeyi bu ölkənin regionda plasdarm olmasına şərait yaratmır"*

Ermənistanın Baş naziri Nikol Paşinyan bildirib ki, dünya koronavirusdan əvvəl olduğu kimi olmayacaq. O, virusdan əvvəlki vəziyyəti bərpa etmək üçün deyil, yeni reallıqlara hazır olmaq üçün addımların atılmasının lazım olduğunu qeyd edib.

Erməni mediası iddia edir ki, Çinin İrəvanda böyük səfirlik tikməsi təsadüfi deyil: "Hər iki nəhəng vaxtilə Ermənistanın xəritədə yerini öz səfirliklərinin böyüklüyü ilə müəyyən edib. ABŞ-ın Ermənistandakı səfirliyi öz həcminə görə dünyada ikincidir. Çinin İrəvanda tikdiyi səfirlik isə öz miqyasına görə Avrasiya məkanında Moskvadan sonra ikinci səfirlik olacaq. Burada söhbət ABŞ və Çinin miqyas nəhəngliyinə rəğbətindən getmir. Bu, İrəvanın regional plasdarm kimi nəzərdən keçirilməsi deməkdir".

Qeyd edək ki, İrəvanda yeni Çin səfirliyi binasının əsası 2017-ci ildə qoyulub. Səfirlik üçün 40 hektarlıq sahə ayrılıb.

Ümumilikdə, erməni tərəfinin Ermənistanın regional roluna bu dərəcədə önəm verməsi nə dərəcədə əsaslıdır?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun fikrincə, erməni təhlilçiləri Ermənistanın rolunu şişirdirlər: "İrəvanda səfirliyin genişlənməsini guya Çin dövlətinin Ermənistana daha böyük əhəmiyyət verməsi və ticarət əlaqələrində maraqlı olması ilə bağlayırlar. Bu isə region ölkələrilə, xüsusilə də Rusiya ilə rəqabət deməkdir. Hesab edirəm ki, deyilənlər erməni mediasının məsələləri təhrif etməsindən irəli gəlir. Çünki nə qədər Çin tərəfi Ermənistanla əməkdaşlığa hazır olsa da, bu ölkə Avrasiya İqtisadi İttifaqının üzvü olaraq azad ticarət zonası və ya tarif rejiminin dəyişməsi haqqında danışıqlar aparmaq iqtidarında deyil. Ermənistan Çinlə yalnız Avrasiya İqtisadi İttifaqı çərçivəsində işləyə bilər. Bu, məsələnin bir tərəfi. Digər tərəfdən, Ermənistanın coğrafi mövqeyi bu ölkənin regionda plasdarm olmasına şərait yaratmır. Hansı plasdarmdan söhbət gedə bilər ki, Ermənistanın açıq dənizə çıxışı yoxdur. Ermənistan Rusiyanın patronajlığı altında olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunur. Bu ölkə müstəqil siyasət apara bilmir. Ölkədə hakimiyyət dəyişikliyi bu sahədə nəyisə dəyişməyib. Belə olan halda, deyilənlər reallığı əks etdirmir".



***Vidadi ORDAHALLI***

# Paşinyan referendumu təxirə salmaqla canını sosial-siyasi ziddiyyətlərdən qurtara biləcəkmi...

**Ermənistanda yeni növ koronavirusla bağlı fövqəladə vəziyyətin elan olunması bu ölkədə Konstitusiyaya dəyişikliklərin edilməsini də nəzərdə tutan referendumu təxirə salıb. Məlum olub ki, referendumun hansı tarixdə keçiriləcəyi hələ bəlli deyil. Lakin Ermənistan hökumətinin bu məsələyə koronavirusla bağlı vəziyyətin düzəlməsindən sonra geri qayıdacağı gözlənir.**



***Məhəmməd Əsədullazadə:** "Paşinyan referendumu təxirə salmaqla müəyyən dərəcədə siyasi gedişlər edəcək"*

Məlumat üçün qeyd edək ki, Ermənistan parlamenti fevralın 7-də növbədənkənar iclasında Konstitusiyanın dəyişdirilməsi üçün referendum keçirilməsi barədə qərar verib. Ermənistan Konstitusiyasına "Mənim addımım" fraksiyası tərəfindən hazırlanmış düzəlişlərə əsasən, Konstitusiya Məhkəməsi sədrinin və üzvlərinin səlahiyyətlərinə xitam verilməsi nəzərdə tutulur. Bu dəyişikliklər 9 hakimdən ikisinə - Vaqe Qriqoryanla Armen Dilanyana şamil edilmir. Digər 7 hakim və sədr Qrayr Tovmasyan isə yeni düzəlişlərin əsas hədəfidir. Paşinyan parlamentdə çıxışı zamanı Tovmasyanın üçüncü prezident Serj Sarkisyanın tərəfdarı olduğunu və Konstitusiya mətnini onun maraqlarına uyğun dəyişdiyini iddia edib.

O da məlumdur ki, Paşinyan iki il əvvəl cəmiyyətə verdiyi populist vədləri reallaşdıra bilmədi və bu səbəbdən onun reytinqi aşağı düşüb. Ermənistanda sosial-iqtisadi vəziyyətin yaratdığı fəsadlar getgedə daha çox özünü göstərir. Paşinyan ictimai rəyin referenduma qarşı olduğunu bilsə də, öz məqsədlərini reallaşdırmaq üçün bunda qərarlı idi. Ancaq məlum vəziyyət onu referendumu təxirə salmağa məcbur etdi. Bütün hallarda, Paşinyan referendumu təxirə salmaqla canını ölkədəki sosial-siyasi ziddiyyətlərdən qurtara biləcəkmi?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, bu mümkün deyil: "Çünki Ermənistanda cərəyan edən son hadisələr bu ölkənin sosial-iqtisadi sahəsində olduğu kimi, siyasi həyatda da problemlərin artdığından xəbər verir. Belə görünür ki, Paşinyan hakimiyyəti ilə sabiq iqtidar təmsilçiləri arasında kəskinləşən qarşıdurma ölkədə yeni xaosun formalaşmasına zəmin yaradır, ictimai-siyasi proseslərin daha gərgin mərhələyə qədəm qoyduğunu göstərir. Ölkədə keçirilməsi nəzərdə tutulan Konstitusiyaya dəyişikliklərin koronavirusa görə təxirə salınması Pşainyanın işinə qismən yaradı. Bununla Paşinyan öz diktaturasını yaratmaq istəyir. Digər tərəfdən, Paşinyan referenduma getməsə, "Qarabağ klanı"ndan asılı olacaq. Gedərsə, xalqın ona etimadının tükəndiyinin şahidi olacaq. Ona görə də koronavirus pandemiyası Paşinyan üçün müəyyən vaxt qazanmasına səbəb oldu. Onun İrəvan küçələrində bukletlər paylayarkan yaşanan xoşagəlməz hallar ona qarşı ciddi narazılığın işartılarını göstərir.

*"Ancaq ölkədəki müxtəlif ziddiyyətlərdən və sosial problemlərdən xilas ola bilməyəcək"*

Nunla o bir qədər vaxtı uzatdı. Çünki ermənilər hazırkı situasiyadan narazılıqlarını bildirirlər. Onlar hesab edirlər ki,

**Hesab edirəm ki, referendumun keçirilməsindən sonra Paşinyan öz hakimiyyətini gücləndirsə, ona qarşı xalqın narazılığı baş qaldıracaq. Çünki onun hakimiyyətinin vəd etdiyi kimi, inqilabi sosial islahatlara gedilmədi. Hesab edirəm ki, Paşinyan referendumu təxirə salmaqla müəyyən dərəcədə siyasi gedişlər edəcək. Ancaq ölkədəki müxtəlif ziddiyyətlərdən və sosial problemlərdən xilas ola bilməyəcək. Bir sözlə, Ermənistan cəmiyyətində Paşinyana qarşı narazılıqlar azalmayacaq".**

***Vidadi ORDAHALLI***

# Azərbaycan Ordusunda Rusiya hücum helikopterləri...

**Mülki və hərbi aviasiyasını davamlı şəkildə gücləndirən Azərbaycanın bu sahədə yaxından əməkdaşlıq etdiyi ölkələrdən biri də Rusiyadır. Proseslərin gedişi göstərir ki, iki ölkənin aviasiya əməkdaşlığı, xüsusən də helikopterlər sahəsində işbirliyi daha da dərinləşəcək.**

Bunu "İnterfaks" agentliyinə müsahibəsində Rusiyanın Hərbi-texniki əməkdaşlıq üzrə Federal Xidmətinin rəhbəri Dmitri Şuqayev də təsdiq edib.

Onun sözlərinə görə, Rusiya Azərbaycanla helikopterlərin satın alınması ilə bağlı məsələni müzakirə edir. D.Şuqayev bildirib ki, yaxın qonşularla hərbi-texniki əməkdaşlıq kifayət qədər dinamik inkişaf edir: "Bu portfelin MDB ölkələri ilə əməkdaşlıq üzrə dəyəri təxminən 2 milyard dollar həcmindədir". Konkret olaraq ölkəmizlə əməkdaşlığın davam etdiyini bildirən xidmətin rəhbəri əlavə edib ki, Azərbaycanla işbirliyi əsasən satışdan sonrakı xidmətin, quru qoşunlarının texnikası üçün xidmət mərkəzinin və Mi-8 ailəsindən olan helikopter texnikasının təmiri mərkəzinin yaradılmasına yönəlib. Bununla yanaşı, son məhsulun satılmasına dair məsələ müzakirə olunur. Xatırladaq ki, bu günlərdə Azərbaycanda Rusiya istehsalı olan helikopterlərin təmiri və texniki xidmət üçün servis mərkəzinin inşasına başlanıb. ("Rostex"in tərkibinə daxil olan "Rusiya helikopterləri" holdinqi bildirir ki, Azərbaycanda operatorlara hərtərəfli texniki dəstək göstərə bilən və Rusiyanın "Mi" helikopterlərinin yüksək səviyyədə uçuşa yararlı olmasını təmin edən müasir xidmət mərkəzinin təşkili istiqamətində böyük işlər görülür. Bu iş, mövcud bölgələrdə xidmət mərkəzləri şəbəkəsinin genişləndirilməsini nəzərdə tutan "Rostex" Dövlət Aviasiya Klaster Strategiyasının bir hissəsi olaraq həyata keçirilir. Amma D.Şuqayevin açıqlamalarından aydın olur ki, Rusiya son məhsulun, yeni hazır helikopterlərin də Azərbaycana satılmasında olduqca maraqlıdır.

Xatırladaq ki, ölkəmizin helikopter bazasının əsasını məhz Rusiya istehsalı olan vertolyotlar təşkil edir. Azərbaycan indiyə qədər Rusiyadan müxtəlif növ helikopterlər alıb. Məsələn, Azərbaycan mövcud hərbi-texniki əməkdaşlıq müqavilələri çərçivəsində "Rusiya helikopterləri" holdinqindən 6 hərbi-nəqliyyat "Mi 17B-1" helikopteri alıb. Ümumiyyətlə, Azərbaycan 2000-ci illərdən başlayaraq Rusiyadan fəal şəkildə helikopterlər də daxil olmaqla, müxtəlif silahların alışına başlayıb. Bu sahədə ən irihəcmli müqavilə 2010-cu ilin əvvəllərində imzalanıb və onun həcmi 4 milyard dollardan çox olub. Həmin müqaviləyə əsasən, Bakı 100-ə yaxın T-90S, 100 PDM-3, 18 SAU 2C19M1 "Msta-S", 18 SAU 2S31 "Vena", 18 PSZO 9A52 "Smerç", həmçinin, 18 ağır odsaçan sistem TOS-1A "Solntsepek", 10 ədəd "Xrizontema-C" özüyeriyən tank əleyhinə kompleks zirehli maşını, eləcə də 300 PZRK "İqla-S" 1500 raket döyüş kompleksi və böyük mühəndis-minaaxtaran texniki dəsti alıb. Bununla yanaşı, Azərbaycan Silahlı Qüvvələri 60 ədəd Mi-17 nəqliyyat vertolyotları və 24 ədəd Mi-35M zərbə vertolyotları alıb. Helikopterlərlə yanaşı, Azərbaycan tərəfi pilot heyətə təlimlərin keçirilməsi üçün Rusiyadan Mi-35M helikopterlərinin simulyatorlarını da alıb. Qeyd edək ki, Mi-24 helikopterlərinin bazasında yaradılmış Mi-35M helikopterləri həm zərbə, həm də desantın daşınması məqsədilə istifadə oluna bilir. Müasir avionik sistemlərlə təchiz olunmuş helikopterin silahlanmasına 23 millimetr çaplı top, idarə olunan və olunmayan raketlər daxildir. Mi-35M sürət və manevr imkanları, eləcə də daşıdığı silah yükü baxımından Mi-24-ləri geridə qoyur.

Rus hərbi ekspert Andrey Frolov hesab edir ki, Azərbaycan Rusiyadan daha müasir hərbi helikopterlərin alışını da həyata keçirə bilər. Söhbət, ilk növbədə, Mİ-28H və Ka-52 helikopterlərindən gedir. Xüsusən də sonuncu Azərbaycan üçün daha çox maraq kəsb edir. Çünki ordusunu daha güclü hala gətirən Azərbaycan aviasiya qüvvələrinin də daha təkmil hala gəlməsi üçün zəruri addımlar atır. Dağlıq Qarabağ münaqişəsinin hərb yolu ilə həll olunacağı təqdirdə isə aviasiya burada kifayət qədər həlledici faktorlardan biri olacaq və bu reallıq ölkəmizdə lazımınca qiymətləndirilir. Bu fonda, Azərbaycan hərbi aviasiya parkına Rusiya istehsalı olan yeni hücum helikopterlərini daxil etməyi heç vaxt diqqətdən kənarda qoymur. Artıq müəyyən müddətdir Azərbaycan tərəfi Rusiya istehsalı olan Ka-52 "Alliqator" tipli zərbə helikopterlərinin



satın alınmasına marağını ifadə edib. Bu da təsadüfi deyil. Ka-52 "Alliqator" kəşfiyyat-zərbə helikopteri istənilən hava şəraitində və günün istənilən vaxtında tankların, zirehli və zirehsiz döyüş texnikalarının, canlı qüvvələrin, düşmənin helikopterlərinin məhv edilməsi üçün təyin olunub. Helikopter desanta odlu dəstək göstərə, patrul xidməti yerinə yetirə və hərbi kalonların müşayiətini həyata keçirə bilər. Ka-52 "Alliqator" Suriyada Rusiya aviasiyasının tərkibində uğurlu şəkildə istsmara verilib. Yəni real döyüş şəraitində də tam özünü doğruldub.

Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, Azərbaycanın silahlanmasında artıq Mi-35M helikopterləri, eləcə də Mi-15B-5 nəqliyyat-döyüş və hərbi-nəqliyyat helikopterləri var. Ekspertlər bildirirlər ki, Azərbaycanın Mi-35M və Mi-15B-5-ləri olduğu halda, Ka-52 helikopterləri də ölkənin müdafiə qabiliyyəti istiqamətində onların döyüş şəraitində səmərəli tətbiqini tamamlaya bilər. Məhz bu fonda yaxın tezlikdə Ka-52 "Alliqator"ların ölkəmizdə olması tamamilə gözlənilən sayılır.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın təzə təşvişi - Moskva Qarabağ problemini Türkiyənin iştirakı ilə həll edə bilər

**Müəyyən gərginlik və fikir ayrılığından sonra Rusiya və Türkiyənin yenidən Suriyada fəaliyyətlərini koordinasiya etməsi əvvəlki qaydada Yaxın Şərqin geosiyasi mənzərəsinə ciddi surətdə təsir edir. Belə görünür ki, bu iki ölkə Yaxın Şərqdə hadisələrin inkişaf axarını müəyyən edən əsas güc mərkəzi statusunu yenidən özlərinə qaytarır.**

İndi maraq doğuran əsas məqam bu dövlətlərin yaxınlığının nə qədər davam edəcəyi və bunun başqa hansı məkanlarda özünü göstərəcəyidir.

Əslində, dünyanın geosiyasi müstəvisində baş verənlər biri-birinə yaxınlaşmanın həm Rusiya, həm də Türkiyə üçün vacib əhəmiyyət kəsb etdiyini ortaya qoyur. Eyni zamanda, bu iki ölkənin yaxınlaşmasından ciddi narahatlıq duyanlar da az deyil. Ermənistanın "İrates" nəşri bu mövzuya toxunaraq yazır ki, Türkiyə və Moskva arasında yenidən sıxlaşan münasibətlər İrəvan üçün sərfəli deyil: "Bir neçə gün əvvəl Rusiya İdlibdə türk əsgərlərini öldürməkdə ittiham edilirdi və dünya yaranmış vəziyyətdə Moskva və Ankaranın artıq savaşa başlayacaqlarından danışırdı. Ancaq Prezident Rəcəb Tayyib Ərdoğanın son Moskva səfəri vəziyyəti kökündən dəyişdi. Rusiya - Türkiyə münasibətləri Suriyada yenidən normal məcraya döndü. Hətta Rusiya və Türkiyə ordusu Moskva zirvəsində əldə edilən razılaşmaya uyğun olaraq, martın 15-dən İdlibdə M4 magistralında birgə patrul xidmətinə başlayıblar.

Tərəflər arasında belə münasibətlərin Cənubi Qafqaza da təsirsiz ötüşməyəcəyi barədə əvvələr çox deyilib. Məsələ bundadır ki, Türkiyə bu regionda mövqelərini gücləndirməkdə maraqlıdır. Amma buna ən böyük əngəl Rusiyadır. İndi Türkiyə Rusiya əngəlini aradan qaldırır. Azərbaycan isə hər vəchlə Türkiyənin bölgədə güclənməsinə dəstək verməyə çalışır. Çünki bu şəraitdə Dağlıq Qarabağ münaqişəsini daha tez müddətdə öz lehinə həll edəcəyini düşünür.

Təbii ki, Ankara regionda güclənərsə, bu, Azərbaycan üçün məqbul olacaq. Ona görə də Ermənistan hər vəchlə prosesə mane olmağa çalışmalıdır. Amma bu, olduqca çətin missiyadır. Xüsusən də Rusiyanın Ermənistana etimadının azaldığı bir vaxtda".

Qeyd edilənlərdən aydın görünür ki, Rusiya və Türkiyə arasında baş verənlər yenidən Ermənistanda böyük təşviş doğurur.

Politoloq Qabil Hüseynli bütün bunların heç də təsadüfi xarakter daşımadığını düşünür. Onun sözlərinə görə, Türkiyə və Rusiyanın regionda bir-birinə yaxınlaşması Ermənistanın maraqlarına uyğun gəlmir: "Bu gün İrəvanda belə bir düşüncə var ki, Türkiyənin regionda güclənməsi Ermənistanın bir ölkə olaraq varlığına təhlükədir. Əslində isə bu, ermənilərin özləri tərəfindən yaranan əsassız iddiadır. Ermənistanda bu gün də Türkiyə əleyhinə kampaniyalar aparılır. Ermənistan hər zaman Türkiyənin güclənməsindən ehtiyat edib. Təsadüfi deyil ki, Türkiyə əleyhinə aparılan bütün kampaniyalara Ermənistan dəstək verir. Bu isə ermənilərin Türkiyədən nə dərəcədə çəkindiklərini göstərir. Son illər Türkiyənin hərbi cəhətdən güclənməsi və regionda əməliyyatlar aparması, istər-istəməz, Ermənistan hakimiyyətində qorxu yaradır. Növbəti əməliyyatın Ermənistana qarşı ediləcəyini düşünürlər. Lakin bu iddiaların heç bir məntiqi əsası yoxdur. Çünki Türkiyə hər dəfə açıq şəkildə bütün dövlətlərin ərazi bütövlüyünə hörmət prinsipi ilə yanaşdığını qeyd edir". Politoloq qeyd edib ki, Ermənistan hakimiyyəti Türkiyə və Azərbaycan əleyhinə müharibə ssenariləri yaratmağa və cəmiyyəti buna inandırmağa məcburdur: "Bu gün Ermənistan regionda bütün beynəlxalq layihələrdən kənarda qalıb. Bu da, istər-istəməz, ölkə daxilində iqtisadi problemlərə gətirib çıxarır. Heç kəsə sirr deyil ki, Ermənistanda iqtisadi gərginlik səbəbindən xalqla hakimiyyət arasında narazılıqlar günü-gündən artır. Bu mənada hakimiyyət narazı xalqın fikrini yayındırmaq üçün belə bir yola əl atır. Digər bir səbəb isə Ermənistanın Rusiyanın marağını regiona çəkmək istəyidir. Ermənistan hər zaman Rusiyanın vassalı olub və onun ayaqda qalması üçün Rusiya siyasi-iqtisadi və hərbi dəstəyini göstərib. İndi də iqtisadi gərginlik yaşayan Ermənistan bu cür informasiya manipulyasiyaları ilə Rusiyadan yəqin ki, iqtisadi güzəştlər əldə etməyə çalışır".

İstənilən halda, görünən budur ki, Rusiya ilə Türkiyə arasında münasibətlərin yenidən yaxşılaşması Ermənistanda ciddi geosiyasi reaksiya yaradıb. Çünki bu iki böyük dövlətin yaxınlaşması regional və qlobal səviyyədə hiss ediləcək dəyişikliklərə səbəb ola bilər. Həmçinin, proses Yaxın Şərq və Cənubi Qafqazda maraqlı geosiyasi olayların meydana gəlməsini də mütləq mənada stimullaşdıracaq. Elə erməni tərəfini də narahat edən budur. Şübhəsiz ki, Moskva və Türkiyə məlum yaxınlaşma prosesində daha çox öz maraqlarını əsas götürür. Rusiya ilə Türkiyə iqtisadiyyat, turizm və energetika sahələrində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək niyyətindədir. Bu, onların hər ikisi üçün səmərəlidir. Bununla yanaşı, baş verənlərin daha çox geosiyasi kontekstinin olduğunu inkar etmək olmaz. O cümlədən, Cənubi Qafqazda proseslər yeni məzmun ala bilər. Erməni ekspertlər hesab edirlər ki, bu, daha çox geosiyasi əhəmiyyətli Türkiyə və Azərbaycan faktoru ilə bağlıdır. Burada onu da xatırlatmaq yerinə düşər ki, məhz Azərbaycan iki böyük qonşu dövlət arasında əməkdaşlığın inkişafına özünün töhfələrini verməkdədir. İndi, faktiki olaraq, bir çox sahələr üzrə bu üç ölkənin əməkdaşlığından danışmaq mümkündür. Bu proses o dərəcədə inkişaf edib ki, artıq ekspertlər onun geosiyasi təsirindən bəhs edirlər. Rəsmi Bakı daha da irəli gedərək üç ölkəni əhatə edən layihələr irəli sürür. Məsələn, Azərbaycan müstəqil enerji və nəqliyyat siyasəti yeritməklə geosiyasi müstəvidə Rusiya və Türkiyə üçün də əhəmiyyəti olan nəticələr əldə edir. Nəticədə Rusiya-Türkiyə-Azərbaycan əməkdaşlıq formatı regional və qlobal miqyasda geosiyasi və enerji-təhlükəsizlik, etibarlı nəqliyyat sisteminin yaradılmasına ciddi töhfələr verir. Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, Azərbaycan-Türkiyə-Rusiya əməkdaşlıq formatı Cənubi Qafqazda geosiyasi mühitin sabitləşməsinə töhfələr verə bilər. Şübhə yoxdur ki, Ermənistan məhz bu pozitiv məqamı hiss edib, Rusiya və Türkiyə yaxınlaşmasından əndişə keçirir.

Rusiyalı politoloq Vladimir Şapovalov isə bildirir ki, əslində, qarşıdakı dövr ərzində Rusiya və Türkiyənin daha da yaxınlaşmasını gözləmək olar: "Bunu şərtləndirən çoxsaylı səbəb var. Bura geosiyasi məqamlar da daxildir. Türkiyəyə qarşı bir neçə fəaliyyət nəticəsində ABŞ faktiki olaraq müttəfiqi Ankaranı itirib. Türkiyə de-fakto ABŞ-ın müttəfiqi olmaqdan çıxıb və hətta müəyyən mənada ABŞ-ın düşməninə çevrilib. Bu, ABŞ-ın Yaxın Şərq siyasətində fəlakətli nəticədir. Faktiki olaraq, ABŞ hazırda öz əli ilə özünü etibarlı müttəfiqindən məhrum edib. Bu situasiyada ABŞ provokasiya vasitəsilə Rusiya və Türkiyə arasında gərginlik yaratmaq qərarı verib. Amma nəticə hasil olmayacaq. Əksinə, tərəflərin biri-birinə daha çox yaxınlaşmasını gözləmək olar. Bura təkcə Yaxın Şərq deyil, Liviya, Qafqaz, Mərkəzi Asiya və digər bölgələr də daxil ola bilər".

Digər ekspertlər də hesab edirlər ki, Ankara Yaxın Şərq niyyətlərini uğurla reallaşdıra bilsə, bu prosesin davamlı olmasını, növbəti mərhələdə Cənubi Qafqazı, Mərkəzi Asiyanı əhatə etməsini gözləmək olar. Hazırda müşahidə olunan budur ki, Ankara Moskvanın yardımı ilə bu ərazilərdə mövqelərini gücləndirməyə getdikcə daha çox önəm verir. Ermənistan bundan narahat olduğundan, onun destruktiv mövqe tutmaqda davam etməsi gözləniləndir. Amma İrəvanın hansısa nəticə əldə edə bilməsi də mümkünsüz sayılır. Beləliklə, Ermənistan faktoru Rusiya-Türkiyə yaxınlaşması fonunda Cənubi Qafqazda daha zəif mövqe sahibi olacaq. Hesab edilir ki, bu gedişlə regionda ermənilərin proseslərə təsir amili ən zəif bir hala gələcək. Belə vəziyyət isə Azərbaycanın maraqlarına tam cavab verir. Çünki Türkiyə Dağlıq Qarabağ məsələsinin ədalətli həlli üçün zaman-zaman cəhdlər edib, Rusiya ilə münasibətlərin yaxınlaşmasından da istifadə edərək bu cəhdlərin miqyasını daha da genişləndirə bilər. Xatırladaq ki, Türkiyə dəfələrlə Rusiya rəhbərliyi ilə Qarabağ danışıqları aparıb. Moskva isə yaranmış vəziyyətdə Dağlıq Qarabağ məsələsinin Türkiyənin iştirakı ilə həllini istisna etmir. Ankara ilə Moskva arasında sıx strateji tərəfdaşlıq prosesə əlavə təkan verir. Eyni zamanda, burada nəzərə almaq lazımdır ki, Türkiyə-Rusiya yaxınlaşması ilə Moskva-Ankara-Bakı təhlükəsizlik üçbucağının yaradılması da mümkün hala gəlir. Sözsüz ki, bu da Qarabağ məsələsinə də birbaşa təsir edən amildir və münaqişə ətrafında yeni, unikal bir situasiyanın formalaşmasına gətirə bilər. Bu xüsusda ekspertlər xatırladırlar ki, Türkiyə-Rusiya münasibətləri yaxınlaşmağa başlayandan sonra Türkiyənin Suriyaya hərbi müdaxiləsi mümkün oldu. Bu, müəyyən qədər, Rusiya-Türkiyə anlaşması çərçivəsində baş tutdu. İndi proses məhz Qafqazda da özünü göstərə bilər. Qafqaz indiyə kimi Rusiyanın əhatə dairəsində olan siyasi-iqtisadi məkan sayılıb. Ona görə də Rusiya ilə anlaşmadan bu gün Qafqazda ciddi geosiyasət yürütmək çox çətin məsələdir. Bunu Ankara anlayır və Türkiyənin Qafqazda maraqlarını təmin etmək üçün Rusiya ilə işbirliyi bu fonda tamamilə məntiqi addım sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycan xaricdən öz tələbələrinin təxliyyə edilməsində daha üstün nəticələr ortaya qoyur

**Azərbaycan dövləti hər zaman öz vətəndaşına sahib çıxmağı, ən ağır məqamlarda ona arxa-dayaq olmağı bacarır. Deyərdik ki, dövlətimiz bütün məsələlərdə olduğu kimi, bu kimi hallarda da atdığı addımlarla digər ölkələrə bir nümunədir.**

*"...onların təhlükəsizliyinin təmin edilməsi məqsədilə belə operativ addımlar atır"*

***Şakir Habiloğlu:** "Fikrimcə, Azərbaycan dövlətinin başqa dövlətlərdən daha operativ şəkildə öz vətəndaşlarının taleyinə reaksiya verməsi bir örnəkdir"*



Bildiyimiz kimi, koronavirus təhlükəsi ilə bağlı bir çox dövlət çıxılmaz vəziyyətə düşüb, onlar nəinki xarici ölkələrdə təhsil alan, işləyən vətəndaşlarına, ümumiyyətlə, heç ölkə içində yaşayanlara da operativ dəstək göstərə bilmirlər. Azərbaycan dövləti isə bu məsələdə həmişə fərqlənib. Məlum olduğu kimi, koronavirus təhlükəsilə bağlı xarici ölkədəki Azərbaycan vətəndaşlarının ölkəmizə təxliyyə edilməsi istiqamətində dövlətimiz çox uğurlu, operativ addımlar atıb.

Elə İtaliyada təhsil alan tələbələrin operativ şəkildə ölkəmizə təxliyyə edilməsi son örnəklərdən biridir. İtaliyada təhsil alan azərbaycanlı tələbələrin Vətənə təxliyyə edilmələri üçün çarter reysləri təşkil edilib və onlar tez bir zamanda vətənimizə dönüblər. Onlar buna görə Azərbaycan rəhbərliyinə təşəkkür ediblər.

Qeyd edək ki, təxliyyədən əvvəl Roma hava limanında toplaşan 200-dən çox tələbəmiz yaradılan şəraitə görə öz minnətdarlıqlarını bildirib.

Bundan başqa, bu ilin yanvar ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, müvafiq qurumlar tərəfindən Türkiyədə baş vermiş zəlzələ zonasında təhsil alan azərbaycanlı tələbələrin təxliyyə olunması prosesi həyata keçirildi və tələbələr sağ-salamat ölkəmizə gətirilərək ailələrinə qovuşdular.

Ümumiyyətlə, Azərbaycan dövləti bu kimi məsələlərdə bu dəfə də başqa ölkələri bir daha üstələdi. Xarici ölkələrdə təhsil alan vətəndaşlarının təxliyyə edilməsində ölkəmiz öz operativliyinə görə çox fərqləndi.

Məsələyə şərh verən "Novoye vremya" qəzetinin baş redaktoru, siyasi icmalçı Şakir Habiloğlu (Ağayev) bildirdi ki, koronavirus təhlükəsinin aradan qaldırılması, lokallaşdırılması istiqamətində Azərbaycan dövlətinin verdiyi qərarların özü də çox operativ oldu. "Ümumiyyətlə, başqa ölkələrlə müqayisədə Azərbaycan dövlətinin koronavirus təhlükəsinin qarşısının alınması istiqamətində qəbul etdiyi qərarların özü göstərir ki, dövlətimiz öz vətəndaşının taleyinə biganə deyil. Verilən bütün qərarlar, tapşırıqlar onu göstərdi ki, dövlətin əsas məqsədi insanların sağlamlığının qorunmasıdır. Vaxtında verilən bu çevik qərarların təbliğ edilməsi, daha çox insana çatdırılması üçün biz - media təmsilçiləri də böyük rol oynamalıyıq ki, dövlətin verdiyi qərarlara cəmiyyət reaksiya versin, əməl etsin. Çünki bu qərarların hamısı Azərbaycan vətəndaşlarının sağlamlığının qorunması, təhlükəsizliyinin təmin edilməsi və bu qorxulu virusdan az itki ilə çıxmağımıza yönəlib. Tələbələrin təxliyyəsinə gəlincə, səhv etmirəmsə, Bakı-İstanbul reysilə 230, Bakı-Roma reysilə isə 161 nəfər Azərbaycan vətəndaşı ölkəmizə təxliyyə edilib. Bu təqdirəlayiq haldır. Bu onu göstərir ki, Azərbaycan dövləti həm xaricdə təhsil alan tələbələrin, həm də səfərdə olan insanların taleyinə biganə qalmır və onların təhlükəsizliyinin təmin edilməsi məqsədilə belə operativ addımlar atır. Bu, eyni zamanda, ölkə başçısının öz vətəndaşlarına münasibətinin göstəricisidir. Dövlətimiz üçün hər şeydən üstə vətəndaşlarımız və onların sağlamlığı, təhlükəsizliyi dayanır".

Ş.Ağayev qeyd etdi ki, Azərbaycan dövləti dünyanın harasında yaşamasından asılı olmayaraq, vətəndaşı üçün hər hansı bir təhlükə olarsa, buna bütün dövlətlərdən əvvəl operativ reaksiya verir. "Azərbaycan dövləti təkcə son hadisələr zamanı deyil, bundan əvvəl də xaricdə yaşayan, təhsil alan vətəndaşlarımızla bağlı bu cür operativ addımlar atıb. Həm zəlzələlər, həm hansısa bir fövqəladə hadisə, həm də dünyanı lərzəyə salan və dünya iqtisadiyyatını çökdürən koronavirus təhlükəsi zamanı dövlətimiz vətəndaşına ciddi dəstək verib və onların təhlükəsizliyini təmin edib. Bu, yenə də deyirəm, Azərbaycan Prezidentinin vətəndaşlarımıza bəslədiyi qayğı və diqqətin təzahürüdür. Azərbaycan dövlətinin xaricdə təhsil alan tələbələrin təhlükəsizliyini düşünərək onları tez bir zamanda ölkəmizə təxliyyə etməsinin əsas göstəricilərindən biri də bizim dövlətin iqtisadi gücü və imkanıdır ki, tez zamanda bu işi operativ həll edir. Doğrudur, bizdən də imkanlı dövlətlər var, amma onlar bunu düşünənə qədər artıq bizim dövlət təxliyyə işini həyata keçirir. Bu da dövlətin Azərbaycan insanına verdiyi dəyərdir. Fikrimcə, Azərbaycan dövlətinin başqa dövlətlərdən daha operativ şəkildə öz vətəndaşlarının taleyinə reaksiya verməsi bir örnəkdir" - deyə Ş.Ağayev qeyd etdi.

***İradə SARIYEVA***

# Ünvanlı yardım üçün müraciət edənlərin kommunal və rabitə xərclərinin limiti artırılacaq

**Ünvanlı yardım üçün müraciət edən ailənin kommunal və rabitə xərcləri üçün müəyyən olunan limit artırılacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Trend"ə bildirilib ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ünvanlı dövlət sosial yardımı proqramının əhatə dairəsinin genişləndirilməsi üçün cari ildə də müvafiq işlər aparılacaq.**




Proqramın genişləndirilməsi üçün vacib məsələlərdən biri sosial yardım sisteminin aztəminatlı ailələrə əlçatanlığının artırılmasıdır.

Bu məqsədlə "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanunda və sosial yardımın alınması üçün müraciət edilməsi, təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi ilə bağlı Qaydalarda dəyişikliklər layihələri hazırlanıb.

Belə ki, hazırkı qanunvericiliyə görə, ailənin adambaşına düşən kommunal və rabitə xərclərinin cəminin orta aylıq məbləği ölkə üzrə təsdiq olunmuş yaşayış minimumunun 10 faizindən çox olduqda ünvanlı sosial yardımın təyin olunmasından elektron sistem tərəfindən avtomatik imtina edilir. Yeni layihələrdə həmin limitin artırılması yer alıb.

Bununla bərabər, layihələrdə ailə tərkibində baş vermiş dəyişikliyə və buna görə məlumat verilməməsinə görə yardım təyinatından imtina edilməməsi və ya ödənilən yardımın dayandırılmaması, ailənin götürdüyü kreditin onun gəliri kimi nəzərə alınmaması və ailənin sosial yardım hüququna manea yaratmaması və s. əksini tapır. Həmçinin, ünvanlı yardım üçün müraciət zamanı qeyd edilməsi tələb olunan məlumatların sayının azaldılması, müvafiq məlumatların aidiyyəti qurumların elektron informasiya bazalarından əldə edilməsi nəzərdə tutulub.

Qeyd edək ki, ünvanlı sosial yardım alan ailələrin sayı 2019-cu ildə 40 mindən 72 minə çatıb. Ötən il bu yardımın alınması üçün kriteriyaların (həmçinin, torpaq pay mülkiyyəti ilə bağlı şərtin) yumşaldılması ilə bağlı müəyyən işlər nəticəsində əlavə 7 min ailə ünvanlı sosial yardım proqramına daxil olub.

**Ümumilikdə, bu il ünvanlı sosial yardım alan ailələrin sayının 85-90 minə çatdırılması hədəflənir.**

**Azərbaycan Milli Məclisi epidemiyaya qarşı mübarizəyə dəstək olacaq qanun layihələrini qəbul edib. Bu məqsədlə İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə müvafiq dəyişikliklər qəbul olunub.**

# "Koronarejim" qaydalarını pozanlara qarşı yeni cəza tədbirləri gəldi...

***Mehman Muradlı:** "Xəstəliklə aparılan mübarizə çərçivəsində hüquqi məsuliyyət hissinin də aşılanmasının müsbət mənada göstəriciləri olacaq"*

İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyə görə, 211-ci maddə aşağıdakı redaksiyada verilir:

"Maddə 211. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər iki min manatdan beş min manatadək məbləğdə cərimə edilir".

Cinayət Məcəlləsinə 139-1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddə əlavə olunur. Həmin maddəyə görə, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda iki min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Eyni əməllər insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır."

Məlumdur ki, Azərbaycan hakimiyyəti dünyanı bürüyən və pandemiya elan olunan virusla bağlı mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatının bütün tövsiyələrinə əməl edir. Bu sahədə qanunvericiliyin sərtləşdirilməsi hansı effekti verəcək?

Azərbaycan Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, qanunvericiliyə bu dəyişikliklərin edilməsi çox zəruridir: "Təəssüflər olsun ki, bizim vətəndaşlarımızın çoxuna epidemiya ilə bağlı vəziyyət tam çatmayıb. Sosial şəbəkələrdə aparılan təbliğatdan görürük ki, bəziləri bunu lağ obyektinə çevirmək istəyirlər. Ancaq dünyada gedən proseslərdən görürük ki, dövlətlər bununla necə ciddi mübarizə yolunu tutublar. Bu cür hallarla bağlı məsuliyyət növləri müxtəlif cür ola bilər. Yəni bütün məsuliyyəti dövlətin üzərinə atılmamalıdır. Dövlət üzərinə düşən maarifləndirmə tədbirlərini görür, səlahiyyəti çatan yerlərdə işləri, tədrisi təxirə salır. Bununla iş bitirmi? Vətəndaşlar da öz üzərlərinə düşəni etməlidirlər. Karantin qaydalarına əməl etməli,




şəxsi gigiyenasına fikir verməli, epidemiyanın yayılmasına səbəb ola biləcək addımlardan kənarda qalmalıdırlar. Bu artıq məsuliyyət məsələsidir. Çox təssüflər olsun ki, bizdə heç də bütün vətəndaşlar üzərlərinə düşən vəzifələri yerinə yetirmirlər. Qənaətim bundan ibarətdir ki, bu epidemiyadan məsuliyyətli xalqlar az itki ilə çıxacaqlar. Bəli, məhz məsuliyyətli, iqtisadiyyatı, hərbisi güclü olanlar yox. Biz görürük ki, məsuliyyət hissini dərk edən ölkələrdə bu sarıdan vəziyyət qənaətbəxşdir. Bəzən olur ki, yuxarıda sadalanan amillər də bu işə kömək etmir. Bunun üçün hüquqi məsuliyyətin dərk edilməsi vacibdir. Epidemiyanın təhlükəlilik dərəcəsini nəzərə alsaq, onda qanunvericiliyin bu istiqamətdə sərtləşdirilməsini lazımi addım kimi qəbul edə bilərik. Edilən dəyişikliklər yalnız fiziki deyil, həm də hüquqi şəxslərlə bağlı məsuliyyət yaradır. Bununla bağlı əməllərin kriminallaşdırılması məsuliyyət hissini artıracaq. Bilirsiniz ki, Azərbaycan dövləti cəzaların dekriminallaşdırılması istiqamətində bir sıra vacib addımlar atıb. Yəni biz heç də həbslə bağlı olan maddələrin çoxalmasında maraqlı deyilik. Xəstəliklə aparılan mübarizə çərçivəsində hüquqi məsuliyyət hissinin də aşılanmasının müsbət mənada göstəriciləri olacaq, məsuliyyət hissini artıracaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Koronavirus təhlükəsi ilə əlaqədar ölkədə qabaqlayıcı tədbirlər həyata keçirilir. İdarələr, təşkilatlar, müəssisələr, təhsil ocaqları dezinfeksiya olunur. Bəzi idarə və birliklər isə təmizlik məqsədilə dezinfeksiya üçün müraciət edirlər.**

***Kəmalə Ağazadə:** "Sığınacaqda olan uşaqların taleyindən narahatam"*

***Binəqədi Rayon İcra Hakimiyyəti:** "Azərbaycan Uşaqlar Birliyinin məktubu baxılması üçün Bakı Şəhər İcra Hakimiyyətinə göndərilib"*

# Uşaqlar Birliyinin dezinfeksiya edilməsi niyə problemlə üzləşib...

Bu günlərdə Azərbaycan Uşaqlar Birliyi sığınacağın dezinfeksiya olunması üçün aidiyyəti qurumlara müraciət edib. Ancaq bu günə qədər sığınacaq dezinfeksiya olunmayıb.

Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə bildirdi ki, o, məsələ ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyətinə müraciət edib: "Hələ ötən həftə Binəqədi Rayon İcra Hakimiyyətinə müraciət etmişəm.

Amma bu günə kimi sığınacaq dezinfeksiya olunmayıb. Hazırda sığınacaqda 35 nəfər var.

Bu qədər uşağı, ananı hara yerləşdirim? Heç olmasa, dezinfeksiya olunmuş bağçalardan birinə 2 günlük uşaqları yerləşdirə bilsək, bu işlərə başlayardıq. Sığınacağın dezinfeksiya olunmasını gözləyirik. Uşaqların taleyindən narahatam".



**Məsələ ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıq. Qurumdan bildirdilər ki, Azərbaycan Uşaqlar Birliyinin məktubu baxılması üçün Bakı Şəhər İcra Hakimiyyətinə göndərilib.**

***Günel CƏLİLOVA***

# İqtisadi azadlıq indeksinə görə Azərbaycanın dünyadakı yeri bir az da yaxşılaşdı...

**ABŞ-ın "İrs Fondu"nun hazırladığı "İqtisadi azadlıq indeksi"nə görə Azərbaycan bu il mövqeyini 16 pillə yaxşılaşdıraraq dünyada 44-cü pilləyə yüksəlib. Hesabatda qeyd olunur ki, Azərbaycan dünyada "İqtisadi azadlıq indeksi"ni ən çox təkmilləşdirən 11 ölkə sırasındadır.**



## *Pərviz Heydərov: "İqtisadi azadlıq indeksində Azərbaycanın ön pillədə olmasının səbəbi sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlər üçün hökumət tərəfindən yaradılan şəraitdir"*

"Prezident İlham Əliyev tərəfindən aparılan sistemli iqtisadi islahatların daha bir beynəlxalq uğurunun şahidiyik. Çünki "İqtisadi azadlıq indeksi"nin tarixində ölkəmiz qədər irəliləyiş edən ikinci bir ölkə yoxdur. Beləliklə, Azərbaycan əsasən azad ölkələrin sırasında mövqelərini daha da möhkəmləndirib. Azərbaycanın bu irəliləyişi biznes, investisiya azadlığı və fiskal sağlamlıq göstəricilərinə görə əldə etdiyi nailiyyətlərə əsaslanır. Azərbaycan "İqtisadi azadlıq indeksi"nə görə Polşa, Belçika, Portuqaliya, İspaniya və Fransa kimi Avropa ölkələrini geridə qoyub. Ölkəmiz Avropa regionunda "İqtisadi azadlıq indeksi"ni ən çox yaxşılaşdıran ölkə kimi qiymətləndirilib. Azərbaycanın "İqtisadi azadlıq indeksi" Avropanın orta göstəricisinə təxminən bərabərdir. Bu ildən etibarən "İrs Fondu" Azərbaycanı Asiya-Sakit okean deyil, Avropa ölkəsi kimi qiymətləndirib".

"İqtisadi azadlıq indeksi"nə görə, Azərbaycanın 16 pillə irəliləməsinin ekspertlər gözlənilən olduğunu düşünürlər.

İqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, iqtisadi azadlıq indeksində Azərbaycanın ön pillədə olmasının səbəbi sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlər üçün hökumət tərəfindən yaradılan şəraitdir: "Məlumdur ki, son zamanlar sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlər üçün kompleks tədbirlər həyata keçirilməkdə davam edir. Sahibkarlara qanunsuz müdaxilələrin ləğv olunması ilə bağlı istənilən nəticəyə nail olunub. Həmçinin, Vergilər Məcəlləsinə edilən dəyişikliklər özəl sektorun inkişaf etməsinə səbəb oldu".

**Həmsöhbətimiz hesab edir ki, növbəti illərdə də Azərbaycan "İqtisadi azadlıq indeksi"nə görə daha ön pillələrdə yer alacaq.**

***Günel CƏLİLOVA***

# Böyük şəhərlərə girişin məhdudlaşdırılması - Azərbaycan şəraitində bu üsul nə qədər səmərəli olacaq...

**Koronavirusun dünyada geniş yayılması, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən infeksiyanın qlobal pandemiya elan olunması, bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da əlavə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zərurətə çevirib.**

## *"Bu minvalla virusun yayılma risqini azaltmaq olar"*

## *Elman Nəsirov: "Belə praktikanın tətbiq olunması səmərəli effekt verəcək"*

Dövlət orqanlarının fəaliyyətini əlaqələndirən Operativ qərargahın yaradılması, bəzi ölkələrlə sərhədlərin bağlanması və gediş-gəliş təmaslarının məhdudlaşdırılması, karantin rejiminin tətbiqi qarşıya qoyulan vəzifələri maksimum icra etməyə imkan verib. Bir ay müddətində kütləvi tədbirlərin, toyların təxirə salınması, dövlət və özəl sektora aid qurumlar, vətəndaşlar üçün xüsusi qaydaların elan olunması, onlara ciddi riayət edilməsi üçün nəzarət mexanizminin formalaşdırılması və tətbiqi qərara alınıb. Azərbaycan hökuməti ÜST-nin tövsiyələrini və beynəlxalq təcrübəni nəzərə alaraq, əhalinin sağlamlığının etibarlı qorunması və virusun yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirib.

Bununla belə, koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə martın 19-da saat 00.00-dan etibarən xüsusi təyinatlı, o cümlədən, təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla, respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılması martın 29-dək dayandırılır. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda qeydiyyatda olan sərnişindaşıma nəqliyyat vasitələrinin (avtobus, mikroavtobus, taksi və s.) ölkənin başqa şəhər və rayonlarından Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna sərnişin daşımaları qadağan olunur. Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı şəhərinə sərbəst giriş-çıxışına icazə verilir.

Bütövlükdə, ölkədə koronavirusla mübarizədə qapalı şəhər praktikasının tətbiqi, böyük şəhərlərə girişin məhdudlaşdırılması nə qədər səmərəli olacaq?

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirovun sözlərinə görə, belə praktikanın tətbiqi olunması səmərəli effekt verəcək: "Nəzərə almaq lazımdır ki, koronavirus infeksiyası planetar təhlükə mənbəyidir. Antraktidadan başqa dünyanın bütün qitələrini əhatə edib. ÜST ayrı-ayrı ölkələrin koronavirusla mübarizəsini qiymətləndirərkən Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək dəyərləndirib. Həqiqətən də Nazirlər Kabineti yanında Operativ qərargah bu istiqamətdə çox operativ addımlar atır. Bu addımlar, ilk növbədə, hər bir ölkə vətəndaşının karantin vəziyyətinə alınması və onun təhlükəsizliyinin təmin edilməsi mənafeyinə xidmət edir. Bu baxımdan çoxsaylı məhdudiyyət tətbiq edilir. Bunlardan biri də martın 19-dan Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna digər rayonlarda qeydiyyatda olan avtomobillərin buraxılmamasıdır. Təbii ki, burada xüsusi istisnalar da nəzərə almaq lazımdır.



Görünən odur ki, bununla bağlı 10 günlük məhdudiyyət tətbiq olunacaq. Gələcəkdə bunun necə olacağı isə koronavirusla mübarizənin səmərəliliyindən asılı olacaq.

**Hər halda, reallıq ondan ibarətdir ki, bu günə qədər koronavirusla mübarizədə vaksin hazırlanmayıb. Belə olan halda, bu kimi məhdudiyyətlərin tətbiq olunması lazımdır. Bu minvalla virusun yayılma risqini azaltmaq olar. Çünki tarixdə dünyada bu kimi praktikadan istifadə edilib. Hər kəs təhlükənin ciddi olmasının fərqində olmalıdır. Hər bir şəxs təkcə dövlətdən nəyisə ummamalıdır. Özü-özünün müdafiəçisi olmalıdır. Özü-özünü karantin vəziyyətində saxlamalı və ehtiyatlı davranmalıdır".**

***Vidadi ORDAHALLI***

# Qorxulu virusla mübarizə şəraitində də sahibkarlara dövlət dəstəyinin yeni mexanizmləri müzakirə edilir

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin tapşırığı ilə Baş nazir Əli Əsədovun yanında iqtisadi məsələləri müzakirə etmək üçün hökumətin iclası keçirilib.**

*"Bütün bu addımların hamısı kompleks olmalıdır ki, koronavirusun yaratdığı neqativ təsirləri müəyyən qədər neytrallaşdırmaq mümkün olsun"*

Nazirlər Kabinetinin Mətbuat xidmətindən verilən məlumata görə, iclasda koronavirus pandemiyasının qlobal miqyasda yaratdığı neqativ mühitin Azərbaycan iqtisadiyyatına mümkün təsirləri və qabaqlayıcı tədbirlər haqqında müzakirələr aparılıb.

Hökumətə tapşırılıb ki, 1 həftə ərzində ticarət, ictimai iaşə və nəqliyyat sahələrində tətbiq edilən məhdudlaşdırıcı tədbirlərin təsiri nəticəsində sahibkarlara dəyə biləcək itkilərin minimuma endirilməsi üçün, dövlət tərəfindən müxtəlif formalarda dəstək verilməsi də daxil olmaqla, təkliflər paketi hazırlasın.

Görünən odur ki, hökumət yaranan vəziyyətlə bağlı sahibkarların da üzləşə biləcəyi itkiləri kompensasiya etmək üçün tədbirlər görür. Hələlik bunun konkret nə formada olacağı bəlli deyil. Bu, müxtəlif formada ola bilər. Bəzi ekspertlərin fikrincə, kommersiya bankları tərəfindən növbəti 3 ay müddətində kredit ödənişlərində zaman güzəştinin verilməsi və yubanmalara görə cərimələrin hesablanmasının dayandırılması lazımdır. Sahibkarların, xüsusən də rayonlarda çalışan iş adamlarının güzəştli kreditlərə çıxış imkanlarının artırılmasına ehtiyac var.

Bütün hallarda, ekspertlər bunu necə dəyərləndirir və mexanizm hazırlanarkən hansı məqamlara xüsusi diqqət edilməsini məqsədəuyğun hesab edirlər?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifov hökumətin sahibkarlara yardımla bağlı müzakirələrə başlamasına müsbət prizmadan yanaşdı.

Onun fikrincə, sahibkarlara yardım müxtəlif formalarda ola bilər: "Bununla bağlı bir sıra ölkələrin bəlli praktikası var. Çin və ABŞ başda olmaqla, inkişaf etmiş ölkələrin bununla bağlı praktikası müxtəlif olsa da, onların arasında bənzərlik var. Hesab edirəm ki, həmin ölkələrin praktikası reallıqdan irəli gəlir.

***Fikrət Yusifov:** "...ticarətlə məşğul olan sahələr güzəştli kreditlə təmin oluna bilər"*



Məsələ ondadır ki, bəzi turist və nəqliyyat şirkətlərinə vergi tətilləri verilir. Bu zaman həmin şirkətlərdən alınacaq vergilərin müddəti uzadılır. Fikrimcə, Azərbaycanda sahibkarlıq fəaliyyətinin bəzi sferaları, xüsusən də ticarətlə məşğul olan sahələr güzəştli kreditlə təmin oluna bilər.

Yəni sözügedən sahələrdə əhalinin ərzaq təminatı yüksək səviyyədə olsun. Hesab edirəm ki, bütün bu qəbildən olan addımların atılması zəruridir. Deməyim odur ki, burada bir-birilə bağlı olan proseslər var. Yəni bir neçə addımın atılması ilə prosesləri tam nəzarətdə saxlamaq mümkün deyil. Ona görə də kompleks tədbirlər görülməlidir. İlk növbədə, sahibkarların maliyyə təminatını yaxşı səviyyədə saxlamaq lazımdır.

**Belə bir şəraitdə gərək banklar da fəal olsunlar. Sahibkarların vəsaitə olan tələbatını ödəsinlər. Söhbət daha güzəştli kreditlərin verilməsindən gedir. Fikrimcə, Mərkəzi Bank bu istiqamətdə müəyyən tədbirlər görəcək. Bankların zəruri ehtiyat normalarının aşağı salınması istiqamətində müəyyən tədbirlər görəcək. Bütün bu addımların hamısı kompleks olmalıdır ki, koronavirusun yaratdığı neqativ təsirləri müəyyən qədər neytrallaşdırmaq mümkün olsun".**

***Vidadi ORDAHALLI***

# Varlı Avropa bankı Azərbaycanın şəhərlərində həyat səviyyəsinin qaldırılmasına vəsait buraxacaq

**Avropa İnkişaf və Yenidənqurma Bankı (AYİB) Azərbaycan şəhərlərində həyat keyfiyyətinin yaxşılaşdırılmasına texniki yardım və kredit ayırmağa hazırdır. Bu barədə media nümayəndələrinə AYİB-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım İvana Duarte deyib.**



Onun sözlərinə görə, bununla bağlı bank şəhər rəhbərlikləri ilə danışıqlar aparmağa hazırdır: "Biz Azərbaycan şəhərlərində həyat keyfiyyətinin yaxşılaşdırılması üçün texniki yardımın və kreditin ayrılmasına dair şəhərlərin rəhbərlikləri ilə danışıqlara hazırıq".

İ.Duarte onu da əlavə edib ki, dünyada 40 şəhərin inkişafına dəstək olan AYİB-in Şəhər Dayanıqlılığı Proqramı müvəffəqiyyətlə davam edir və artıq gözəl nəticələr əldə olunub.

***Telman Zeynalov:** "Xarici banklar şəhərlərdə infrastrukturun yenilənməsi layihələrini maliyyələşdirməyə kredit ayırsalar daha yaxşı olar"*

Ekoloq Telman Zeynalov bildirdi ki, inkişaf etmiş ölkələrin banklarının Azərbaycan təbiətinə, şəhərlərinə kredit ayırması müsbət ideyadır. Şəhərlərdə həyat səviyyəsinin yaxşılaşdırılması üçün müəyyən işlər görmək lazımdır. İlk növbədə, şəhərlərin küçə işıqlandırma sistemi, şəhər nəqliyyatı, içməli su və çirkab su ilə bağlı xidmətlərin, bərk tullantıların idarə edilməsi, mərkəzi istilik sistemi və bərpa olunan enerji infrastrukturunun yenilənməsi və inkişaf etdirilməsi ilə bağlı layihələri hazırlanmalıdır: "Xarici banklar şəhərlərdə infrastrukturun yenilənməsi layihələrini maliyyələşdirməyə kredit ayırsalar daha yaxşı olar. Banklar uğurlu şəhər dayanıqlılıq proqramına qoşulmaqda maraqlı olmalıdırlar".

Həmsöhbətimiz hesab edir ki, banklar Azərbaycanın şəhərlərinə kredit ayırarkən bu prosesdə vətəndaş cəmiyyətlərinin də iştirak etməsi daha məqsədəuyğun olar.

***Günel CƏLİLOVA***

# Böyük ticarət mərkəzləri və mollarda insanları virusdan qoruyan əsaslı yoxlama tədbirləri...

## İlqar Hüseynli: "Bu mərkəzlərdə texnoloji standartlara cavab verən avadanlıqlar alınıb quraşdırılmalıdır"

**Koronavirusun ölkə ərazisində geniş şəkildə yayılmaması və vətəndaşlarımızın bu virusa yoluxma risqinin azaldılması məqsədilə dövlət tərəfindən həyata keçirilən bütün təhlükəsizlik tədbirlərinə qurumlarda, ticarət mərkəzlərində, mollarda, iri supermarketlərdə və əhalinin daha çox üz tutduğu obyektlərdə də ciddi əməl olunmalıdır.**

Artıq bir çox özəl və dövlət xəstəxanasında, eləcə də digər fəaliyyətdə olan qurumlarda xüsusi avadanlıqlar quraşdırılıb və həmin texniki avadanlıqlar vasitəsilə bu məkana gələn insanların temperaturu ölçülür. Bu da həmin məkanlara koronavirusa yoluxma ehtimalı olan insanların daxil olmamasına və bu virusun başqalarına keçməməsinə şərait yaradır.

Amma görək paytaxtımızda fəaliyyət göstərən iri supermarketlərdə, ticarət mərkəzlərində, mollarda bu məsələyə diqqət yetirilirmi? Bəzi bu kimi obyektlərdə maarifləndirici videoçarxlar, plakatlar olsa da, bir çoxunda bu dediklərimiz yoxdur. Bir neçə gün əvvələ qədər müəyyən supermarketlərin girişində isə əlində spirt olan supermarket əməkdaşları dayanırdı və onlar müştərilərin əllərinə spirt tökürdülər. İndi isə çox supermarketdə spirtləmə yığışdırılıb. Ümumiyyətlə, supermarketlər, iri ticarət məkanları, mollarda müştərilərin sağlamlığının yoxlanılması, onların koronavirus daşıyıcısı olub-olmadığını müəyyən etmək üçün xüsusi istiliköлçmə cihazları olmalıdır. Amma təəssüf ki, bizim ticarət məkanları, alış-veriş mərkəzlərində bu qurğular yoxdur.

Onu da qeyd edək ki, Nazirlər Kabineti yanında Operativ qərargah hazırda fəaliyyətini davam etdirən ticarət mərkəzləri, supermarketlərə bütün təhlükəsizlik tədbirləri görmələrini tövsiyə edib. Amma buna əməl edənlər çox azdır.

Xatırladaq ki, bir neçə gün əvvəl Operativ qərargah "koronavirus infeksiyası (COVİD-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam edir. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması dövlətləri daha da ciddi tədbirlər görməyə sövq edir. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu nəzərə alaraq və virusun qarşısının alınması istiqamətində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə və tələblərindən irəli gələrək, ölkə ərazisində bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranmışdır. Bununla əlaqədar bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması qərara alınmışdır. Həmçinin, dövlət və özəl sektora aid qurumlardan, vətəndaşlardan xüsusi qaydalara ciddi riayət etmələri tələb olunur" tələbini bütün vətəndaşlar qarşısında qoyub.

Sosial məsələlər üzrə tanınmış ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, böyük ticarət mərkəzləri və mollarda insanları virusdan qoruyan əsaslı yoxlanış tədbirləri həyata keçirilməlidir. Onun sözlərinə görə, insanların virusdan qorunması üçün hər bir ticarət mərkəzi işlər görməlidir: "Ümumiyyətlə, koronavirus təhlükəsi dünyada dəhşətli bir hal alıb. Bu virusdan qorunmaq üçün Ümumdünya Səhiyyə Təşkilatının müvafiq təlimatları var və Azərbaycan da bu təlimatlara əməl edən ölkələr sırasındadır. Bilirsiniz ki, ölkəmiz ÜST ilə sıx əməkdaşlıq edir, hətta İran da daxil olmaqla, koronavirusdan əziyyət çəkən ölkələrə yardımlar edir, dəstək göstərir. Hesab edirəm ki, dövlətin verdiyi bütün qərarlara iri ticarət mərkəzləri, mollar, supermarketlər də ciddi əməl etməlidirlər, virusun aşkarlanması üçün lazım olan və bu mərkəzlərdə texnoloji standartlara cavab verən avadanlıqlar alınıb quraşdırılmalıdır. Xəstəliyin aşkarlanmasına qədər lazım olan standartlar həyata keçirilməlidir.

Burada bəzi ticarət mərkəzlərimizdə mövcud olan xoşagəlməzlikləri də diqqətə çatdırmaq istəyirəm. Bizim elə iri ticarət mərkəzlərimiz var ki, orada giriş-çıxışla bağlı çox ciddi pərakəndəliklər mövcuddur. Elə götürək "Sədərək", "Binə" və digər buna bənzər ticarət mərkəzlərini, bazarları, molları. Çox təəssüf ki, həmin yoxlama avadanlıqlarının quraşdırılmasına bu binaların konstruksiyası imkan vermir, elə mərkəz var bir deyil, bir neçə giriş-çıxışı var. Amma, heç olmasa, "Gənclik" Moll və digər bu kimi bir çıxış-girişə malik olan mollarda bu avadanlıqları quraşdırmaq, müayinəni tətbiq etmək lazımdır. Texniki imkanları əlverişsiz olan və texniki avadanlıqları yerləşdirməyin mümkünsüz olduğu ticarət mərkəzlərini isə müvəqqəti olaraq bağlamaq lazımdır. Texniki imkanları yetərincə olmayan iri ticarət mərkəzlərinin təhlükə sovuşana qədər müvəqqəti bağlanması daha məqsədəuyğun olardı. Çünki bununla bağlı dünya təcrübəsi var".



"...iri ticarət mərkəzlərinin təhlükə sovuşana qədər müvəqqəti bağlanması..."

İ.Hüseynli hesab edir ki, iri ticarət mərkəzləri özləri əhalinin sağlamlığında maraqlı olmalı və gərəyi olan bütün qabaqlayıcı tədbirlərin görülməsini reallaşdırmalıdırlar. Onun sözlərinə görə, əhalinin sağlamlığının təmin edilməsi üçün bütün qurumlar, ticarət mərkəzləri əlindən gələni etməlidirlər.

***İradə SARIYEVA***

# Milli dəyərlərimizin yeni iflas səhnəsi - bir-birimizi "qoyun-quzu videoları" ilə təbrik edirik

***Qiymət Məhərrəmli:** "Bayram təbrikləri adı ilə "ixtira" edilən mobil tətbiqlər nəinki insanlar arasında səmimi bir körpü rolunu oynamır, hətta bu, birbaşa milli-mənəvi dəyərlərimizin özəyini sarsıdır"*

**Xalqımızın hər bir nümayəndəsi milli-mənəvi dəyərlərimizi qorumağa borcludur. Azərbaycan xalqına mənsub ünsiyyət və bayramlaşma mədəniyyəti özəlliyi ilə diqqəti cəlb etsə də, təəssüf ki, son zamanlar bu sistemin də parçalandığını müşahidə etmək məcburiyyətində qalırıq.**

Bayramlar, xüsusən də milli və dini mahiyyət daşıyan bayramlar insanların, yaxın və uzaq şəxslərin, qohum-qonşuların bir-birilə daha sıx, səmimi ünsiyyət qurmasına, yardımlaşmasına, bir-birinə diqqət göstərməsinə şərait yaradır. Əsrlərdir insanlar xoş sözlərlə, isti-səmimi bayram arzuları ilə bir-birinin könül qapısını döyüblər. Lakin son zamanlar ortaya çıxan bəzi nəsnələr nəinki qonşuların, uzaq qohumların, hətta doğma bacı-qardaşların belə səmimi ünsiyyət qurmasına mane olur.

Mobil telefonlardan istifadə etməyin bir sıra müsbət tərəfləri var. Ünsiyyəti çevikləşdirir, tez bir zamanda qohumlarla ünsiyyət yaratmağı reallaşdırır. Amma bununla yanaşı, mobil telefonlarda, eləcə də müxtəlif internet resurslarında yaradılan tətbiqlər insanların bir-birilə sözlə ünsiyyət qurmasının qarşısına sərt, aşılmaz, soyuq bir divar çəkir. Bilirsiniz, söhbət hansı mobil tətbiqlərdən gedir? Bir sıra şirkətlər, qurumlar son illər müxtəlif səsli, görüntülü təbrik mesajları hazırlayaraq mobil telefon istifadəçilərinin xidmətinə veriblər. Bu mobil tətbiqlərin təqdim etdikləri təbrik mesajlarını biz əsasən Qurban, Ramazan bayramlarında, Novruzaqədərki çərşənbələrdə, eləcə də Novruz bayramı zamanı tez-tez alırıq. Məsələn, insanları narazı salan və hiddətləndirən ən xoşagəlməz tətbiqlər, video və fotolar qoyun-quzu təsvirlərinin yerləşdirildiyi tətbiqlərdir. Bir qayda olaraq, mobil telefon istifadəçiləri bu müqəddəs bayram günündə bir-birinə qoyun-quzu təsviri olan videolar, şəkillər göndərirlər. Gün ərzində eyni video bu yolla yüzlərlə istifadəçiyə ötürülür. Əlbəttə, bir çox halda bu narazılıq yaradır. Hətta bəziləri bundan o qədər əsəbləşirlər ki, sosial şəbəkələrdə "xahiş edirəm mənə qoyun-quzu şəkilləri, videoları göndərməyin, kim göndərərsə, dərhal dostluqdan çıxaracağam" kimi statuslar yazırlar. Bundan isə nəticə çıxarmağa heç kəs tələsmir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklor İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu mobil tətbiqlər insanlar arasında xoş və səmimi ünsiyyəti kökündən baltalayır. O hesab edir ki, insanlar milli-mənəvi dəyərlər sisteminə daxil olan bir çox ünsiyyət vasitəsini unutmaqla mənəviyyatımıza, ünsiyyət, bayramlaşma mədəniyyətimizə zərbə vururlar: "Biz indi Novruz bayramı ərəfəsindəyik. Bundan əvvəl də dörd çərşənbəni qeyd etdik. İlk çərşənbə daxil olandan indiyə qədər eyni videolar, eyni fotolar, eyni səsli "bayram təbrikləri" "Facebook", "WhatsApp"da və digər platformalarda yayılıb. Mobil şirkətlərin Novruza aid hazırladığı videoları, fotoları insanlar bir-birinə göndərir. Bəzən eyni fotonu, videonu sənə yüz insan birdən göndərir. Ən acınacaqlı vəziyyət isə müqəddəs Qurban bayramında yaşanır. Bir çox insanın profilini, statusunu qoyun-quzu videoları, şəkilləri "bəzəyir". Videolarda qoyunların səsini imitasiya edən aktyorlar peyda olur və onlar insanları qoyun-quzunun "dilindən" təbrik edirlər, bu yolverilməzdir. Yaxud bir də görürsən ki, qoyun-quzu təsviri olan videoları hansısa görkəmli aktyorun səsi ilə təqdim edirlər. Ümumiyyətlə, bayramlaşmanı, bayram təbriklərini bu şəkildə təhrif etmək, onun üzərində müxtəlif biznes maraqları qurmaq olmaz. İnsanlar, lap elə yaxın qohumlar, qardaş-bacılar bir-birini öz səsilə, yaxud yazdığı gözəl səmimi mesajlarla təbrik etməlidirlər. Axı səsdə, yazıda ifadə olunan səmimiyyəti hansısa bir qoyun-quzu təsviri ilə vermək olmur. Hesab edirəm ki, bayram təbrikləri adı ilə "ixtira" edilən mobil tətbiqlər nəinki insanlar arasında səmimi bir körpü rolunu oynamır, hətta bu, birbaşa milli-mənəvi dəyərlərimizin özəyini sarsıdır. Bizim gözəl dilimiz var, əsrlərdən bəri formalaşan bayramlaşma mədəniyyətimiz mövcuddur, amma biz bundan istifadə etmək, onu yaymaq, genişləndirmək, yeni nəslə təlqin etmək əvəzinə, onları başqa səmtə yönəldirik. Bu gün gənclik görür ki, valideyni öz yaxın qohumları ilə bu şəkildə bayramlaşır, o da sabah bunu təkrarlayacaq. Halbuki, biz qoyun-quzu şəkillərini, videoları göndərmək əvəzinə, "bayramınız mübarək" yaza bilərik. Bu daha səmimidir".




*"Videolarda qoyunların səsini imitasiya edən aktyorlar peyda olur və onlar..."*

Q.Məhərrəmli qeyd etdi ki, bu gün insanların sözdən, danışıqdan az istifadə etməsi halları yaranıb. Bir-birinə hansısa bir hissini ifadə etmək istəyən insanların çoxu bunu sözlə ifadə etmək əvəzinə, müxtəlif smaylklardan istifadə edirlər. Bu halın da ünsiyyət mədəniyyətinə ciddi zərər vurduğunu deyən alim hesab edir ki, dilimizi, eləcə də yaşam mədəniyyətimizi, dəyərlərimizi yaşatmaq üçün sözdən daha çox istifadə etməliyik. O, həmçinin, qeyd etdi ki, bayramlarla, ünsiyyət mədəniyyətilə, rəftar və əlaqə qaydaları ilə bağlı folklorumuzda kifayət qədər örnək var.

Müsahibimiz hesab edir ki, biz ünsiyyət və bayramlaşma mədəniyyətimizi yalnız yazıda, kitablarda yaşatmalı deyilik, keçmişlə əlaqəmizin itməməsi üçün, həmçinin, onu həyat tərzimizə çevirməliyik.

***İradə SARIYEVA***

№ 49 (4180) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

19 MART 2020-ci il

www.baki-xeber.com



# Dünyanın düz formada olduğunu iddia edənlər...

**Son illərdə dünyanın düz formada olduğunu iddia edənlərin sayı artmaqda davam edir. Braziliya bu ideyanı müdafiə edən ölkələr sırasında ön yerdədir.**

"Milli.Az" xəbər verir ki, Braziliyanın araşdırma şirkəti "Datafolha"ya görə, dünyanın düz olduğuna inanan vətəndaşların sayı 11 milyondan çoxdur. Bu isə əhalinin 7%-ni təşkil edir. "Datafolha"nın araşdırmasına görə, Yerin düz olduğuna inanan braziliyalıların əksəriyyətini kişilər təşkil edir. Xüsusilə, protestant və katoliklər bu iddianı müdafiə edənlər arasında ön planda-dır. Düz dünya iddiasını müdafiə edənlər Yerin kosmosdan çəkilən fotolarına inanmır və NASA-nı saxtakarlıqda ittiham edirlər. San-Paulo Universitetinin astronomu Roberto Kosta məsələ ilə bağlı verdiyi açıqlamada bu fikirlərə yer verib: "Yerin 17-ci əsrin əvvəllərindən bu yana düz olmadığını bilirik. Hətta, qədim yunanlar 2000 il əvvəl bunu anlayıb. Düz dünya iddiası elm adamlarından daha çox psixoloq və sosioloqların işləyəcəyi mövzu olmalıdır. Dünyanın hansı formada olduğu astronomlar üçün elmi problem deyil". Qeyd edək ki, Yerin düz olduğunu sübut etmək üçün özünün istehsal etdiyi raketlə kosmosa getmək cəhdi Mayk Hyuza həyatı bahasına başa gəlmişdi.

## Yer kürəsinin yeni təbii peyki kəşf edilib

**"2020 CD3" kiçik asteroidi müvəqqəti olaraq Yer kürəsinin ikinci təbii peykinə çevrilib.**

"Deyerler.org" bildirir ki, bu barədə Smitson Astrofizika Rəsədxanasının Kiçik Planetlər Mərkəzinin məlumatında bildirilir. "Orbitlərin uzlaşmasına görə həmin cisim Yer kürəsinə müvəqqəti bağlanıb. Günəş işığının təzyiqi ilə bağlı hər hansı sapma əlamətləri, habelə məlum olan süni obyektlə əlaqəsi aşkarlanmayıb", - deyilən açıqlamada asteroidin diametrinin 1-6 metr olduğu qeyd olunub.



## 3 yaşlı uşaq evin bağçasında çəhrayı çəyirtkə tapdı

**ABŞ-da 3 yaşındakı bir uşaq, evin bağçasında çəhrayı çəyirtkəyə rast gəldi. Böcəkləri çox sevən uşaq, təbiətdə nadir görülən dəvətsiz qonaqla çoxlu vaxt keçirdi. Çəyirtkələri ümumiyyətlə yaşıl tonlarda görürük və indiyə qədər bizi yalnız ölçülərlə təəccübləndirə bildilər.**

Ancaq ABŞ-ın Texas ştatında yaşayan bir ailənin kiçik oğlu, çəyirtkələrin çəhrayı rəngə sahib ola biləcəyini göstərdi. Ostin şəhərində yaşayan Allison Barger adlı bir qadın, 3 yaşındakı oğlu Bruksun evin bağçasında çəhrayı çəyirtkə tapdığını söylədi. Bruksun böcəkləri çox sevdiyini söyləyən Barger belə dedi: "Vaxtını çəyirtkəyə nə qədər şirin olduğunu söyləyərək xərclədi. İnternetdə axtarış edənə qədər, nə qədər nadir olduğu haqqında fikirimiz yox idi". Çəhrayı çəyirtkələr, eritizm adı verilən genetik bir mutasiyanın nəticəsi olaraq ortaya çıxır. Delaver Universitetindən bir entomoloq olan Cared, çəhrayı çəyirtkələrin vəhşi həyatda nadir hal olduğunu ifadə etdi. Bununla yanaşı, bəzi mütəxəssislər çəhrayı rəngin çəyirtkələrdə gözə çarpan bir xüsusiyyət olduğunu, ancaq ovçuların onları asanca fərq etməsi ilə zamanla azaldıqlarını düşünür.

## Pişik bəsləmək ruh sağlamlığına yaxşı təsir edir

**Pişik bəsləmək ruh sağlamlığına yaxşı təsir etdiyi kimi insan həyatına da inanılmaz müsbət faydaları var. "Milli.Az" xəbər verir ki, dünyada bir çox ölkələr 17 fevralı "pişik günü" olaraq qeyd edirlər.**

Edilən elmi araşdırmalar göstərir ki, pişiklər insanlara həm fiziki həm də ruhən fayda verən hevanlardır. Pişik saxlayan insanlar saxlamayanlara nisbətən daha az infarkt keçirmə riski daşıyır. Eyni zamanda, pişik olan evdə təzyiq xəstələrinin təzyiqi normal səviyyədə olur. Pişik bəsləyən valideynlərin uşaqları daha mərhəmətli, empatiya duyğuları güclü və məsuliyyət sahibi olurlar. Xüsusilə, depressiyaya meyilli insanlar pişik saxlayarlarsa həyata bağlı olub, yaşam istəkləri artar. Bristol Universitetinin araşdırmasına görə pişik sahibi olanlar oxumağa meyilli, univeristetdə uğur qazanan, bacarıqlı insanlar olurlar. Pişiklərlə bağlı edilən bütün araşdırmalar göstərib ki, insanların ruhən daha sağlam olması üçün, özlərini və həyatı sevmələri üçün heyvan saxlamaq qoruyucu faktor rolunu oynayır.







**Qoç** - Fəal, enerji ilə zəngin, sizə faydalı və çoxsaylı işləri görməyə imkan verən gündür. Müxtəlif yerlərdə olacaq fərqli insanlarla görüşəcəksiniz. Təmasların ab-havası sakit, yaradıcı və dostyana olacaq.



**Buğa** - Rəvan olmayan, həyəcanlar və emosiyalarla dolu gündür. Təxminlənməyən, qəfil hadisələrin sayını minimuma salın. Riskə getməyin, oraqnizminiz üçün ifrat yük ola biləcək heç nə etməyin.



**Əkizlər** - Yeni ilin həftəsinin bu günü sizin üçün mühüm dövrlərdən biridir. Günəş və Plutonun tutduqları mövqelər bundan xəbər verir. Önəmli işin birindən imtina edərək başqasına başlayaraq sizin üçün ən əhəmiyyətli olanı seçin.



**Xərçəng** - Planların pozulmasını emosional qarşılamayın. Kimsə diqqətinizi yayındıra bilər. Günün ilk yarısında dostlarla planlaşdırılmamış görüş və ya tanışlarla problemin həlli mümkündür.



**Şir** - Yaxın ətrafınızdakı insanlar planlarınız və ideyalarınızın hamısını dəstəkləməyəcəklər. Tələsməyin. Emosionallığınız və çılğınlığınız bu gün münasibətlərin harmoniyasını poza bilər.



**Qız** - Fikrinizi ən önəmli məsələnin həllinə yönəldin, ikinci dərəcəli detallara diqqət ayırmayın. Bacardığınızdan artıq iş görməyə çalışmayın. Bayramdan sonrakı pozitiv əhval-ruhiyyənizi pozmayın.



**Tərəzi** - İctimai fəallığı gərəkli minimum səviyyəsinə endirin. İşlə məşğul olun. Fiziki iş daha məsləhətdir. Ətrafınızda qayda yaradın. Axşam saatlarında əhvalınız daha nikbin olacaq. Yeni hadisəyə və görüşə hazırlaşın.



**Əqrəb** - İşlə bağlı məsələlərin sizi narahat edəcəyinə hazır olun. Bu gün virtual və ya real görüşləri müəyyənləşdirin. Günün ilk yarısında münasibətlərin aydınlaşdırılması planları poza bilər.



**Oxatan** - Şərait dəyişir, sizdən səbr və məntiq, həyata fəlsəfi baxış tələb olunur. Günəş və Pluton sizin üçün tərəfdaşlıq müstəvisini fəallaşdırıb. Münasibətlərdəki problemlər sizi narahat edərsə, onları məhz indi həll edin.



**Oğlaq** - Çətin, güclü emosiyalar günüdür. Çətinlikləri yeni imkanların carçısı hesab edin. Situasiyaya fərqli baxın və ola bilər ki, ən mürəkkəb vəziyyətdə sərfəli məqamlar tapasınız.



**Dolça** - Mülayim davranış münasibətləri tənzimləməyin ən yaxşı yoludur. Evdə qayğılar arta bilər. Qonaq gələcək, dəvət alacaqsınız. Səhər saatlarında görəcəyiniz işləri müəyyənləşdirin, axşam saatlarında isə istirahət edin, əylənin.



**Balıqlar** - Mühüm situasiya böhran mərhələsinə daxil ola bilər. Batini dəyərləndirmədə fərqli vəziyyət yaranacaq. Ətrafınızda dəyişən şərtlərə, özü barədə məlumat vermək istəyənə, gələn xəbərlərə diqqət yetirin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Koronavirusdan müdafiə üçün qəribə qoruyucu hazırladı

**Çinli memar Sun Dayonq, Koronavirusundan qorunmaq üçün qəribə bir qoruyucu hazırladı. Bir kürək çantası kimi taxıla bilən dizayn, virusun yoluxmasına manea törətmək üçün taxan insanın ön qisimini bağlayan bir kapsula halına gəlir.**

Sun Dayonqun karbon lifdən edilən dizaynı, yarasa qanadlarının bağlı mövqedə dayandığı kimi dayanacaq və istifadəçi, anlayışı bir çanta kimi kürəyində daşıyacaq. Sun Dayonqun qurduğu Penda memarlıq ofisinin paylaşdığı anlayış dizayn, səthinə yaydığı ultrabənövşəyi radiasiya şəbəkəsi, ətrafdakı mühitin istilədərək virusun ölməsini təmin etməyin yanında mühitində sterilizasiyasını da təmin edəcək.

Qoruyucu dizayn, virusları öldürmək üçün 56°C'yə qədər istilənəcək. Anlayış qatlana bilən formada hazırlandı, ancaq avtomatik olaraq da açıla biləcək.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.